

SƏİDƏ ƏLİYEVA
Nağıl dünyam

SƏİDƏ ƏLİYEVA

# NAGIL DÜNYAM

«Elm və təhsil»
Bakı – 2011

*Ön sözün müəllifi:* Bəkir Nəbiyev
*akademik*

*Redaktor:* Mehdi Şərifov
*Rusiya Yazıçılar İttifaqının üzvü*

**Səidə Əliyeva.**
**Nağıl dünyam. Bakı, «Elm və təhsil», 2011, 136 səh.**

Kitabda Rusiya Yazıçılar İttifaqının «V.V. Mayakovskiy» və «A.S. Qriboyedov» adına mükafatları laureatı Səidə Əliyevanın şeirləri toplanmışdır. Səidənin 2009 - cu ildə işıq üzü görmüş «Sənin üçün darıxmışam» adlı ilk şeirlər toplusu müxtəlif beynəlxalq mükafatlara layiq görülmüşdür.

$Ə\frac{4702000000}{N098-2011}$ qrifli nəşr

© Əliyeva Səidə, 2011

# MÜNDƏRİCAT

Şeirə köklənən ürək    akademik BƏKİR NƏBİYEV ..........7

## 1. TƏBİƏT

### *1.1. YURDUMA XOŞ GƏLİR BAHAR*

İlk bahar ..........11
İlk baharın nəğməsi ..........12
Gözəldir yazın gəlişi ..........13
Yaz səhəri ..........14
Baharda ..........15
Xoş gəlib ..........16

### *1.2. QIŞIN NƏĞMƏSİ*

Yeni il ..........17
Yeni il arzuları ..........18
Yeni ilin ilk günü ..........19
İlk qar ..........21
Qış gecəsi ..........22

### *1.3. ÇÖKDÜ BAĞ-BAĞÇAYA PAYIZ HAVASI*

Payız ..........24
Qızıl payız ..........25
Bir payız axşamında ..........26
Son bahar ..........28

### *1.4. ÇİÇƏK ÇƏLƏNGİ*

Nərgiz gülü ..........29
Qızılgüllər ..........30
Çobanyastığı ..........32
Güllər ..........34
Bənövşələr ..........35
Ağ çiçəklər ..........36

*1.5. HƏR AĞAC BİR XATİRƏ*

Qoca palıd ........ 37
Çinar ........ 38

*1.6. QUŞLARIM, HAVADA QANAD SAXLAYIN*

Qaranquş ........ 40
Qaranquşlar qayıdanda ........ 41
Bülbül ........ 42
Göyərçin ........ 44
Qartal ........ 45
Durnalar ........ 46
Sərçələr ........ 48

*1.7. FÜSUNKARDIR TƏBİƏT*

Yazım şeirimi ........ 49
Gözəldir ........ 50
Göylərdə sayrışan parlaq ulduzlar ........ 51
Ulduzların altında ........ 52
Yola boylanar ........ 54
Küləklər ........ 56
Yağış ........ 57
Göy qurşağı ........ 58
Dostlar, təbiəti seyr eyləyək! ........ 59
Dənizə vurulmuşam ........ 60
Təbiəti gözəlləşdirən insandır ........ 61
Təbiətin möcüzəsi ........ 62
Sevirəm təbiəti ........ 63
Çox sevirəm ........ 64
Təbiətin töhfəsi ........ 65
Bu dağların ........ 66
Qax ........ 68
Kəpənək ........ 69
Dovşanım ........ 71

## 2. AİLƏM

### *2.1. BİR MƏLƏKDİR MƏNİM NƏNƏM*

Nənəli dünyam....72
Bir dənəsən nənə....73
Əziz nənəmə....74
Nənəm....76

### *2.2. XATİRƏMDƏ YAŞAR BABAM*

Şəmməd babama!....77
Dağçiçəyim....79

### *2.3. BAŞIMIN TACI ANA*

Ana xeyir-duası....80
Öz anamı istərəm....81
Anam bilməsin....82
Analar....83
Anama....84
Könül tərənəsi....86
Sevdim mən səni....87
Kaş məni danlayaydı....89
Yuxu getmir gözlərimə....91
Sən olmasaydın ana....92
Sənsiz....93
Telefon zəngi....94
Öyrədə bildimi?....95
Ana, səni gözləyirəm....96
Sən mənim hər şeyimsən....97
Nə yaxşı ki, rəsmin varmış…....98
Gülüm səni xatırladır mənə....100
Yuxularda axtarıram....101
Səni düşünürəm....103
Bilsəydim sən gələcəksən…....104

# 3. UŞAQ ALƏMİ

## *3.1 ÜRƏK ÇIRPINTILARIM*

Mənim arzum......105
Mənim könül nəğmələrim......106
Nəğməyə dönər misralar......108
Axan gizli göz yaşlarım......109
Getdin......111
Nə deyim?......112
Mənim ilk kitabım......114
Əziz müəllimim......115
Çox sevdiyim müəllimə......116

## *3.2. DÜNYANI DÜŞÜNƏNDƏ*

Səndən ümid kəsilməz......118
Məhəmməd peyğəmbər belə buyurmuş… ......119
Dua......121
Nağıl dünyam......122
Dünyamızı sevək......123
Dilənçi qadına......125
Qorxdum......126
Saat......127
Səxavət oxuyanda......128
Dağlar oğlu......129

## *3.3. GÜLÜŞSÜZ KEÇMƏZ ÖMÜR*

Nübar nənə......131
Yatmaq olmur......132
Ay camaat bu da varmış dünyada… ......133

## ŞEİRƏ KÖKLƏNƏN ÜRƏK

Yaşının az olmasına baxmayaraq, Səidənin şeirləri Azərbaycanda və xarici ölkələrdə dəfələrlə nəşr olunmuşdur. 2009-cu ildə gənc şairənin «Sənin üçün darıxmışam» adlı ilk şeirlər kitabı da oxuculara təqdim edilmişdir.

Səidənin «Nağıl dünyam» adlı ikinci kitabındakı şeirləri mövzu baxımından üç fəsilə bölmək olar: təbiət haqqında, ailə üzvlərinə həsr olunmuş sətirlər və müəllifin dünya haqqında duyğu və düşüncələri. Maraqlıdır ki, onun şeirlərinin çoxu təbiətə həsr olunmuşdur. Səidə təbiəti daha çox gül-çiçək, gözəllik mənbəyi kimi tərənnüm edir. Təbiətın gözəllik qanunlarına tabe olduğunu hiss edərək onu musiqi kimi qəbul edir. «Yağış» şeirində olduğu kimi:

Yağan yağışın səsi,
Xatırladır musiqini.
Damcıların rəqsi,
Heyran edir hər kəsi.

Gül-çiçəyə həsr olunmuş şeirlər silsiləsi yalnız tərənnümdən ibarət deyil. Onları oxuyanda həmin nemətlərin canlı obrazı gözümüzdə canlanıb, yaddaşlarımıza həkk olunur. «Nərgizgülü» şeirinə fikir verək:

Ləçəklərinin hərəsi bir rəng verir,
Mürgülü gözlərini açaraq gülümsəyir.
Ətirli çiçəkləri çölə – düzə səsləyir,
Çiçəklərin pərisi, ətirli nərgiz gülü.

Səidə onun üçün doğma olan insanlara həsr etdiyi şeirlərində öz hisslərini necə var, eləcə də açıqlaya bilmişdir. Onun yaradıcılığında anaya həsr edilmiş şeirlər silsilə təşkil edir. Anasından müvəqqəti ayrı düşmə məqamlarının təsviri doğma övlad nisgilindən yoğrulmuşdur. «Sən mənim hər şe-

yimsən…» şeirində anaya məhəbbət bir-biri ilə antonim təşkil edən bənzətmələr vasitəsilə tərənnüm olunur:

Sən mənim varlığımsan,
Bu günüm, sabahımsan.
*Gülüşüm, göz yaşımsan,*
Sən mənim hər şeyimsən…

Səidənin bir necə şeiri nənəsinə və babasına həsr edilmişdir. Onlardan şairənin nənəsini çox sevdiyi görünür. «Bir dənəsən nənə» şeirində özünün və nənəsinin talelərini bir ocaq başında birləşdiyini əks etdirir.

«Əziz nənəmə» şeirində nənəsinin gözlərini mavi dənizə bənzətməsi, onun dəniz kimi böyüklüyünə, əzəmətinə də bir işarə olub səmimi təsir bağışlayır:

Gözlərinə baxıram,
Sanki mavi dənizdir.
Mənə qayğın, zəhmətin,
Sonsuzdur, əvəzsizdir.

Dünyasını dəyişmiş babasına həsr olunmuş şeirləri isə kədərlidir. Babayla bağlı xatirələrini yaddaşının dərinliklərində yaşadan balaca şairənin qəlb çırpıntıları təbiidir:

Payız xəzəlisən, həzin, nisgilsən,
Təmiz vicdan ilə vaxtsız öldün sən.
Axı sən comərdsən, sözü bütövsən,
Bizi yalqız qoyub getdin bəs nədən?

«Dünyamızı düşünək» şerində Səidə bəzi böyüklərin yalançı vədlərlə dolan aləminə etiraz edir. O, öz uşaq təfəkkürü ilə anlayır ki, mənəvi dəyərlər gündəlik tələbatlardan daha da zəruridir:

Dünya qədim kitab, kimsə oxuyub bitirmədi,
Cazibəli qoynuna kimlər gəlib getmədi?
Xəzinələr var torpağının hər qatında,
Sirli nəsillər yatır bu torpağın altında,
Neçə nəslin payı var hər insan həyatında.

«Dilənçi qadına» şeirində «talesiz qadının» psixoloji-

ruhi vəziyyəti, onun keçirdiyi həyat yaşantılarının ağrı-acısı poetik dillə çatdırılır:

Göz yaşları axıdırsan,
Dil töküb yalvarırsan,
Qəlbləri dağlayırsan.
Yalvarırsan, göz yaşların,
Yanaqlarına süzülür.
Fəryadın qəlb dağlasa da,
Bəzən dodaq da büzülür.

Gənc şairə hərdən dini mövzuya da müraciət edir. «Məhəmməd Peyğəmbər belə buyurmuş» və «Dua» şeirlərində müəllifin Allaha və dinə münasibəti öz əksini tapmışdır:

Məhəmməd Peyğəmbər belə buyurmuş:
Əl tutub məzlumlara yardım eyləyin,
Qocalara, xəstələrə qayğı göstərin,
Ehtiyacı olanlara kömək eyləyin.

«Dua» şeiri ulu Tanrıya Səidənin körpə qəlbindən doğan bakir dualardan ibarətdir. Qızcığazın duaları yaşıdlarını da, bəzi böyükləri də düşündürür, qayğılandırır:

Haqqdır Allahım! Məhəmməd Peyğəmbərim!
Şükür olsun var bir parça qismətim,
Min şükür! Salamatdır əlim - ayağım,
Ya Rəbbim! Çox görmə sevdiklərimi.

Səidənin bir sıra əsərlərində müasir həyatın bəzi qüsurlarına satirik yanaşma özünü büruzə verir, bu baxımdan onun yaradıcılığına Mirzə Ələkbər Sabir ənənələrinin təsirini müşahidə etmək olar. Onun 2011-ci ildə Sabirin vəfatının 100 illiyinə həsr olunmuş Satira və Qəzəl Müsabiqəsində diplomla təltif olunması təsadüfi deyil. Şairə qızcığaz «Yatmaq olmur» şeirində bu günkü Bakının bəzi məişət xarakterli nöqsanlarını yumoristik dillə qələmə almışdır.

Səidənin satirası ədəbi sahəyə də yonəldilmişdir. «Ay camaat bu da varmış dünyada…» şeirində o, satirasını özlə-

rini ustad hesab edən, əslində isə mənasız nəzm yazan bəzi müasirlərinə yönəltmişdir:

Şair olmaq sənlik deyil,
Yazdıqların bir şey deyil…
Danışırsan zayıl-zayıl,
Ay camaat bu da varmış dünyada…

Hələ onun söz düzümündə müəyyən sahmansız məqamlar, şeirinin vəznində və qafiyələrində bir kövrəklik özünü göstərməkdədir. Yaxşı ki, kitabı nəşrə hazırlayanlar onlara əl vurmayıblar. Çünki, «Nağıl dünyam» kitabı elə indiki halında da müəllifin şeirə köklənməkdə olan fikir və duyğular aləmi haqqında təsəvvür verir və bizi inandırır ki, Səidənin timsalında sabahın ümidverən, maraqlı bir şairi yetişməkdədir. «Çökdü bağ-bağçaya payız havası», «Quşlarım havada qanad saxlayın», «Başımın tacı-anam», «Bir mələkdir mənim nənəm» kimi seçdiyi bölmə adları da bunu sübut etməkdədir.

Uğurlar olsun!

BƏKİR NƏBİYEV
akademik

# 1. TƏBİƏT

## *1.1. YURDUMA XOŞ GƏLİR BAHAR*

### İLK BAHAR

Yurduma ilk bahar gəlib,
Yamaclarda qar əriyib,
Günəş zərli tellərini,
Çölə – düzə səpələyib.

Açıb yuxulu gözlərini,
Tər bənövşələr oyanıb.
Qarçiçəyi, novruzgülü,
Alça, zoğal çiçək açıb.

İl axır çərşənbə günü,
Artıq torpaq oyanıb.
Hərə bir tonqal qalayıb,
Sevinclə üstdən atlanıb.

Ellər bolluq arzulayıb,
Bişirir şəkərbura, paxlava.
Əlvan yumurtalar boyayıb,
Novruzu sevinclə qarşılayıb.

Haçaquyruq qaranquş
Müjdə gətirib bahardan.
Çöl – çöp yığıb palçıqla,
Yuva qurur eyvanda.

## İLK BAHARIN NƏĞMƏSİ

Gözləmişəm qaranquşun müjdəsini,
Gözləmişəm quşların şən səsini,
Gözləmişəm yazın ılıq havasını,
Şimşək çaxıb tez-tez yağış yağmasını.

Ana yurdun ilk baharı gözəldir,
Yaşıl məxmər yamacları gözəldir.
Tər bənövşə, nərgizləri gözəldir,
İl axır çərşənbəsi, bayramları gözəldir.

Yenə yurduma ilk bahar gəlir,
Ellər bu günü bayram eyləyir.
Süfrələri min bir nemət bəzəyir,
Hamı bir – birini təbrik eyləyir.

Evlərdə bişirilir şəkərbura, paxlava,
Qoz, fındıq, səməni, yumurtalar yan – yana,
Əlində papaq pay istəyir kosa,
Özünü salır keçəl, aman verməyir ona.

Həyətdə tonqal yandırıb uşaqlar,
Sevinclə tonqalı seyr edir onlar.
Üstündən hoppanıb növbə ilə bir – bir,
Ağırlığım, uğurluğum tökülsün deyir.

## GÖZƏLDİR YAZIN GƏLİŞİ

Yamaclar, cığırlar göyəribdir,
Budaqda tumurcuqlar düymələnib.
Boylanır kollardan nərgiz, bənövşə,
Otlar arasından mavi qarçıçəyi.

Dönüb yuvasına yazın ilk elçisi,
Sevindirir insanları bahar nəfəsi.
Bahar duyğuları, novruz nəğməsi,
Sanki ruhlandırır görən hər kəsi.

Bəzəyib hər yanı əlvan çiçəklər,
Qonur güldən – gülə kəpənəklər.
Bağlarda quşlar nəğmələr deyər,
Elimə, yurduma bahar xoş gələr.

## YAZ SƏHƏRİ

Çən, duman dərələrə sürünər,
Çöl, çəmən gül-çiçəyə bürünər.
Yamyaşıl köynəyini geyinər,
Moruqlu dərələr, laləli düzlər.

Güzeylərdə ala-tala qar görünər,
Güneyləri əlvan güllər bəzəyər.
Ağ duvaqlı şəlalələr tökülər,
Çoşğun çaylar son mənzilə tələsər.

Günəş buludların arxasında gizlənər,
Yaz yağışı ələnər, arabir kəsər.
Qaranquşlar, durnalar, leyləklər,
Sarıköynək, bülbüllər geri dönər.

Yaz nəfəsi təbəssüm, sevinc gətirər,
Gəlişi ilə könülləri sevindirər.
Şirin laylay deyər hər açılan səhər,
Doğma Bakımın aynası mavi Xəzər.

Yaz səhəri al şəfəqə bürünər,
Bağlarda quşlar səs-səsə verər.
Oyanar nərgiz, tər bənövşələr,
Düyməl追ər ətirli qızılgüllər.

## BAHARDA

Təbiət füsunkar, xəyalım səyyar,
Düşündükcə pərvazlanar kövrək arzular.
Başdan-başa gözəllikdən yaranmış bahar,
Baharda çiçək açar bütün ağaclar.

Baharda  qayıdar qaranquşlar,
Rəng-rəng güllər ətir saçar.
Təbiət çəmənə əlvan don biçər,
Düzlərdə lalələr alışıb yanar.

Həyatın qəlbidir şeir, nəğmələr,
Hər alın təri ilə yazılar əsər.
Baharda açılar ətirli güllər,
Baharda oxuyar nəğməsini bülbüllər.

Baharda göz oxşayar zərif çiçəklər,
Baharda dağ-dərə yaşıl tülə bürünər.
Quşlar da baharda bala böyüdər,
Ana təbiət baharda yaşıl don geyər.

Gözəldir vətənimin qışı da, baharı da,
Gözəldir vətənimin dağı da, aranı da.
Bol gözəllik bəxş edib təbiət ana yurduma,
Mavi Xəzər layla deyir məğrur Azərbaycana.

## XOŞ GƏLİB

Bir-birini qovar aylar,
İlk bahar təşrif buyurar.
Dönər leyləklər, durnalar,
Yuva qurar qaranquşlar.

Parlaq günəş saçar şəfəq,
Alça, badam açar çiçək.
Yaşıllaşar düz-biçənək,
Düzləri lalələr bəzəyər.

Ana təbiət canlanar,
Nərgiz yuxudan oyanar.
Utancaq zərif bənövşələr,
Boynunu büküb dayanar.

Ətir saçar qızılgüllər,
Tər yasəmən, qərənfillər.
Düzlərdə xallı lalələr,
Köz kimi alışıb yanar.

Sarıköynək, bülbüllər,
Bağ-bağçanı bəzəyər,
Yaşıl donunu geyər,
Ormanlar, sıx meşələr.

## *1.2. QIŞIN NƏĞMƏSİ*

### YENİ İL

Yeni il xoş gəlmisən,
Qədəmlərin mübarək!
Hər yeni gəlişinlə sən,
Fərəh gətir, sevinək!

İl üstünə il gətirir,
Hər uğurlu qədəmin.
Payına düşür hərənin,
Bəxş etdiyin töhfələrin.

Sənin hər gəlişinlə,
Üzü gülür hər kəsin.
Düz bir il səbirsizliklə,
Yolunu gözləyənlərin.

Gözəl süfrə açaraq,
Təbrik edər bir-birini.
Şeir, nəğmə söyləyər,
Səhərəcən rəqs edərlər.

## YENİ İL ARZULARI

Yeni ilə qədəm qoyuruq,
Süpriz dolu yep-yeni ilə.
Olub keçənlərə nöqtə qoyuruq,
Gələn ili qarşılayırıq həyacan ilə.

Gələn bu ilimiz uğurlu olsun,
Səadətlə, müjdələrlə dolsun.
Bu yeni ildə ulu Tanrımız,
Bütün bəlalardan bizi qorusun!

Ruzi, bərəkətli gəlsin ilimiz,
Səmaya ucalsın şaqraq nəğməmiz.
Qürurla döyünsün qəlblərimiz.
Mübarək olsun yeni ilimiz!

## YENİ İLİN İLK GÜNÜ

Yeni ilin ilk günüdür,
Göydə günəş parlayır.
Biz qarı gözləyərkən,
Qar havası görünmür.
İstəyirik qar yağsın, qar,
Sevinsin qoy uşaqlar.

İlk baharı xatırladır,
Yeni ilin ilk günü.
Dəniz kənarına yollanır hamı,
Şən keçirməyə bu günü.
İstəyirik qar yağsın, qar,
Sevinsin qoy  uşaqlar.

Bayram şənliklərində,
Yolkaların ətrafında
Şaxta baba, Qar qız
Yeni il isə qarsız.
İstəyirik qar yağsın, qar,
Sevinsin qoy uşaqlar.

Mən qışı çox sevirəm,
Buzu, qarı bol olsun.
Ağ qar dənəcikləri
Yolu, izi bağlasın.
İstəyirik qar yağsın, qar,
Sevinsin qoy uşaqlar.

Qış gəlib artıq dostlar,
Gözləyirik yağsın qar.
Qarın bizə xeyri var,

Qarın da öz gözəlliyi var.
İstəyirik qar yağsın, qar,
Sevinsin qoy uşaqlar.

Gözəllərin gözəli vətəndir,
Vətənimin hər fəsli gözəldir.
Qışın gözəlliyi yağan qarıdır,
Həyətdə düzələn qar adamıdır.
İstəyirik qar yağsın, qar,
Sevinsin qoy uşaqlar.

## İLK QAR

Qar yağır narın – narın,
Sevincidir uşaqların.
Ağ yorğana bürünmüşdür,
Zirvələri uca dağların.

Sanki dağlar qocalıbdır…
Saç – saqqalı ağarıbdır.
Düzlərinə nur yağıbdır,
Hər yana ilk qar yağıbdır.

Qartopu oynayırlar
Fərəhlə qızlar, oğlanlar.
Qardan adam düzəldir
Çöldə dəcəl uşaqlar.

Sakit – sakit, aram – aram,
Qar yağır dayanmadan.
Qalın – qalın geyinib mən,
Uşaqlara qoşuluram.

## QIŞ GECƏSİ

Qarlı, şaxtalı,
Bir qış axşamı…
Bir qəriblik çöküb,
Hakim kəsilib ruhuma.
Riqqətlə çırpınan,
Həyacanla döyünən qəlbimə.
Bayırda adamı,
Kəsir qılınc kimi
Qışın sazağı, ayazı.
Şaxta rəssam kimi,
Naxış, naxış
Bəzədi pəncərəmi.
Bədirlənmiş ay bəmbəyaz,
İşıq saçıb aləmə,
Nur ələyir hər yerə.
Sükuta qərq olur,
Bu qərib gecə…
Gecənin zil qaranlığı,
Üşüdür qəlbimi.
Pəncərədən baxıram
Dənizə sakitcə.
Sahilə can atar,
Gümüş dalğalar.
Soyuqdan büzüşüb,
Sahilə yığışar qağayılar.
Əsir dəli rüzigar,
Qovur qaranlıqları…
Gecə öz yerini,
Nurlu səhərə verir.
Qarşılayaq səhəri,
Ömrümüzün bəzəyi.

Sevək mavi Xəzəri,
Sevək bütün fəsilləri.
Sevək payızı, yayı,
Qışı da bahar kimi.

## *1.3. ÇÖKDÜ BAĞ-BAĞÇAYA PAYIZ HAVASI*

### PAYIZ

Külək qovdu buludları,
Duman bürüdü dağları.
Payızın çiskini, sazağı,
Tökdü solmuş yarpaqları.

Sərinləşdi havalar,
Xəzəl oldu yarpaqlar.
Durnalar, qaranquşlar,
Bir-bir köçüb yox oldular.

Soldu güllər, çiçəklər,
Çaxdı tez-tez şimşəklər.
Uçur budaqdan-budağa,
Dolaşalar, sərçələr.

Ağırlaşıb buludlar,
Yağdı leysan yağışlar.
Uçub getdi quşlar,
Boş qaldı yuvalar.

Bağ-bağçalar gəl deyər,
Yığmağa mer-meyvəni.
Qışa tədarük gör deyər,
Bostandakı tərəvəzi.

## QIZIL PAYIZ

Düşür ağac altına,
Sarı, xallı yarpaqlar.
Təbiət yerə rəngbərəng,
Salıb əlvan xalılar.

Yerə dəyir ağacların,
Meyvə dolu budaqları.
Cəh-cəh vuran quşların,
Boş qalıbdır yuvaları.

Bağlara sakitlik çöküb,
Gül-çiçək xəzələ dönüb.
Nəğməkar bülbüllər köçüb,
Görünməyir qaranquşlar.

Buludlar dolur, boşalır,
Tez-tez çiskin yağış yağır.
Gecə uzanır, gün qısalır,
Hava erkəndən qaralır.

Qatarlaşıb durnalar,
Hələlik əlvida söyləyir.
Sükutu pozub ağacdələn,
Artıq qış yaxınlaşır deyir.

## BİR PAYIZ AXŞAMINDA

Salıb örpəyini dağlar dumandan,
Ellər köç eyləyib enib yaylaqdan.
Əl-ayaq yığışıb daha bulaqdan,
Köçür qatarlaşan durna uzaqdan.

Bir payız axşamı bir el gözəli,
Ağ libas geyinib ağ çiçək kimi.
Sevincdən, fərəhdən gülür gözləri,
Zərif, qayğısız kəpənək kimi.

Bir payız axşamı oğul anası,
Səbirsizliklə evində gəlin gözləyir.
Dilində xeyir-dua qız anası,
Qızını yola salır, səadət diləyir.

Bir payız axşamı çalınır vağzalı,
Sevinir, rəqs edir, oynayır hamı.
Gözlərin aydın oğul anası,
Gəlin qədəmlərin olsun sayalı.

Bəyimiz toyun mübarək olsun,
Gözəl həyatın səadətlə dolsun.
Bu çiçək gəlinlə bütün ömrünüz,
Bir ocaqda, bir yastıqda qocalsın.

Bir payız axşamı çatdı arzuya,
Sevənlər məhəbbətin çiçək vaxtında.
Müqəddəs sevgi aldı onları ağuşuna,
Ömrün gül-çiçək açan gözəl çağında.

Sevgidən güc alır hər arzu, dilək,
Ülvi duyğularla şad olar ürək.
Sevgidən doğular məhəbbət, çiçək,
Odlu, alovlu gənclik çağında.

Sizin ürəyiniz qəmli döyünməsin,
Heç vaxt kirpiyiniz nəmli görünməsin.
Şən illəriniz boş-boşuna ötməsin,
Sizi ata-ana görək bir payız axşamında.

## SON BAHAR

Tökülmüşlər yarpaq – yarpaq,
Ağac altda xəzəl olmuş,
Al – əlvan xalı toxumuş,
Təbiət sarı yarpaqlardan.

Sarı xallı yarpaqlar da,
Uçur havada bir – bir.
Qatarlaşıb gedən durnalar da,
Artıq qış yaxınlaşıb deyir.

Yol kənarı yamaclarda,
Baş qaldırıb yamyaşıl otlar.
Əsrarəngiz bu son baharda,
Canlanır xəyalımda ilk bahar.

Çox gözəldir vətənimin,
Son baharı, ilk baharı.
Son baharda arabir,
Çiskin yağan yağışları.

Əlvida deyər son baharda,
Qatarlaşıb gedən durnalar.
Mujdə gətirər ilk bahardan,
Haçaquyruq qaranquşlar.

## 1.4. ÇİÇƏK ÇƏLƏNGİ

### NƏRGİZ GÜLÜ

Ləçəklərinin hərəsi bir rəng verir,
Mürgülü gözlərini açıb gülümsəyir.
Ətirli çiçəkləri çölə – düzə səsləyir,
Çiçəklərin pərisi, ətirli nərgiz gülü.

Ağaclarda qönçələrin düymələri çatlayır,
Kol dibindən utancaq bənövşələr boylanır.
Qızılgül, qərənfil, zanbaq, yasəmən, lalə,
Gözəldir çiçəklərin hər biri nərgiz gülü.

Çəkmişəm dəftərimə qızılgülün rəsmini,
Çox sevirəm zərif bənövşənin ətrini.
Dərib dəstə bağlaram bağrı qara lalənin,
Bağışlaram hər kəsə həvəslə nərgiz gülü.

Bir çiçək ömrünü yaşayıb, soldun,
Gələn bahara bir ovuc toxum qoydun.
Adını qəşəng qızlara yadigar qoydun,
Çiçək qızların adı Nərgiz gülü.

## QIZILGÜLLƏR

Al-əlvan geyinib çəmənlər-düzlər,
Qönçələnib rəng-rəng qızılgüllər.
Yuxusundan oyandı günəş dəniz səsinə,
Tökdü qızıl tellərini Xəzərin sinəsinə.

Sevirəm çiçəkli bahar fəslini,
Tər qızılgüllərin zərif ətrini.
Vətən kəlməsini, ana səsini,
Qəlbimə nəqş etdim, silə bilmirəm.

Günəş işığında köz kimi yanan,
Gözümü güllərdən çəkə bilmirəm.
Gövdəsindəki tikanlar əlimə batır,
Qönçə qızılgülləri dərə bilmirəm.

Tərifə layiqdir tər, şehli güllər,
Süfrələri bəzəyər, könülləri sevindirər.
Toy, nişan məclisində əllərdə gəzər,
Bir-birindən gözəldir, seçə bilmirəm.

Hər qızılgülün öz ətri var,
Hər qızılgülün öz rəngi var.
Sevənlər bir-birinə bu gülü bağışlayar,
Qızılgüllər məhəbbət rəmzi sayılar.

Ağ qızılgüllər dostluq rəmzidir,
Qırmızı qızılgül məhəbbət nişanəsidir.
Sarı qızılgüllər ayrılıq ifadəsidir,
Bu güllərin heç birindən keçə bilmirəm.

Gün kimi şəfəq saçır qırmızı qızılgüllər,
Ağ qızılgüllər ağ göyərçinə bənzər,
Sarı qızılgülün ətri insanı bihuş edər,
Vurğunuyam bu güllərin hamısına, niyə bilmirəm?

## ÇOBANYASTIĞI

Ləçəkləri ağappaqdır,
Günəş kimi nur saçır.
Hər dərdə dava-dərman,
Bir dəstə çobanyastığı.

Ləçəklərin ortasında
Şəfəq saçır günəş kimi.
Min dərdin dərmanıdır,
Ağ ləçəkli çobanyastığı.

Çöl-çəmənin, dağ ətəyin
Ağ, qırmızı, sarı bəzəyi,
Süsən, zanbaq, incigülü,
Bağrı qara dağ laləsi.

Uzaqdan gəlir tütək səsi,
Qoyun-quzu mələşməsi.
Təbiətin ecazkar gözəlliyi,
Heyran edir hər kəsi.

Qayalıqdan  çeşmə axır,
Lilpar, yarpız yamyaşıl.
Kol-kos basmış cığırlarda
Qarışqalar qaynaşır.

Asimana ucalır,
Uşaqların şən səsi.
Uzlərində təbəssüm,
Əllərində gül dəstəsi.

Cığırların solu-sağı,
Kəkotu, çobanyastığı.
Zümzümə ilə dərə aşağı,
Haray salır dağ çayları.

# GÜLLƏR

Qarşısında diz çöküb gözəlliyin,
Seyrinə çıxmışam çölün-çəmənin.
Yaşıl ormanların, sıx meşələrin,
Gördüm ki, yaşlıdır gözü güllərin.

Belini əyib qəhri dağın, təpənin,
Bir çiçək ömrünün qısa sətrinin.
Titrəyir hikkəsindən əsən küləyin,
Qüssədən şehlə dolur gözü güllərin.

Ana təbiətimin qoynu füsunkar,
Sal qayasında da çiçək boylanar.
Rəngarəng ləçəkləri bərq vurar,
Möcüzədir hər biri düzü güllərin.

Qızılgül məhəbbət rəmzi sayılar,
Qərənfil məzarlar üstə qoyular.
Səhər-səhər açar, axşamlar solar,
Ömrü qısadır bəzi güllərin.

İlk müjdəsidir bahar fəslinin,
Bəzəyidir kolun-kosun, meşənin.
Boynubükük zərif, tər bənövşənin,
Birinə tay olmaz yüzü güllərin.

## BƏNÖVŞƏLƏR

Ətrafına xoş ətir saçar,
Təravətli tər bənövşələr.
Yuxulu gözlərini açar,
Boynunu bükər bənövşələr.

İlk baharla qovuşar,
Birgə dönər qaranquşla.
Erkən açar, tez sovuşar,
Köçər şehli bənövşələr.

Qar altında düymələnər,
Yarpaqlanar, pöhrələnər.
Yarpaqlarına şeh düşər,
Yaz soraqlı bənövşələr.

Kol dibini məskən edər,
Qəddini əyib mürgüləyər.
Günəşə baxıb gülümsəyər,
Şux ləçəkli bənövşələr.

Zərifdir bütün güllərdən,
Tez yox olur görən nədən?
Küsübdür görən kimlərdən?
Kövrək, qəmli bənövşələr.

Qısılar kolların dibinə,
Başını əyər köksünə.
Diləkdir bir dəstə dərənə,
İncə, zərif bənövşələr.

## AĞ ÇİÇƏKLƏR

Baharda təbiətin qoynu çiçəklə dolar,
Ətrafa ağ çiçəklərin ətri yayılar.
Hər yaşıl taladan bir ağ çiçək qopardaq,
İlk baharın töhfəsidir ağ çiçəklər.

Elə ki, duyular baharın ılıq nəfəsi,
Açar yasəmən, qızılgül, dağ laləsi.
Bəzəyər sehri, tilsimi, möcüzəsi,
Ana təbiəti ecazkar ağ çiçəklər.

Sərin çeşməli, vüqarlı dağları,
Yaşıl güneyləri, bağça-bağları,
Dünyanı, cahanı, qara torpağı,
Açıb gözəlləşdirər ağ çiçəklər.

Sən ey könül açan ağ ləçəklər,
Damcı-damcı gözünüzdən şeh düşər.
Nədən gözəlsiniz, söyləyin bu qədər?
Təzə, tər-təravətli ağ çiçəklər.

Çiçəklər içindən seçilərsiniz,
Çöllərə, çəmənlərə bəzəksiniz.
Aləmə yayılır zərif ətriniz,
Füsunkar ətirli ağ çiçəklər.

Toy, nişan məclisinin bəzəyisiniz,
Ağ libaslı gəlinlərin əlindəsiniz.
Təzə bəylər qız evinə göndərər sizi,
Xoşbəxtliyin rəmzi ağ çiçəklər.

## 1.5. HƏR AĞAC BİR XATİRƏ

### QOCA PALID

Həyətdə bir palıd ağacı var,
Bəlkə də yüz ilə çatıbdır yaşı.
Gör neçə illəri yola salıbdır,
Neçə sevinc görüb, neçə göz yaşı.

Baharda yarpağı yamyaşıl olar,
Qışda qaşqabaqlı, pərişan durar.
İsti yay günündə çətirə dönər,
Sinə gərər yağan yağış, çiskinə.

Qoca palıdın altında axşamlar,
Çay içər, nərd atar oturub adamlar.
Gül əkib, bulaq da çəkib onun dibinə,
Təqaüdə çıxan ixtiyar qocalar.

Əzizdir, doğmadır palıd ağacı,
Burda yaşayan hər bir sakinə.
Yarpaq pıçıltısı, quşların səsi,
Qarışıb bulağın zümzüməsinə.

Palıdın budağından uşaqlar,
Quşlar üçün yuva da asıblar.
Yuvaya axşam- səhər onlar,
Çörək qırıntısı, dən atarlar.

Bir kəsi evində tapmasan əgər,
Bil, qoca palıdın altında olar…
Burda bir-birindən hal-əhval tutar,
Burda görüşərlər bütün qonşular...

## ÇİNAR

Qoca çinar, uca çinar,
Sən yolun kənarında,
Boy atıb ucalmısan,
İllərin sınağında,
Yavaş-yavaş qocalmısan.

Qoca çinar, nələr olub?
Yarpaqların saralıb, solub!
Quruyub qol-budağın,
De, qəddin niyə əyilib?
Quruca gövdən qalıb.

İl boyu yamyaşıl olardın,
Sən əzəmətlə ucalardın.
Yollara çətir olardın,
Burdan gəlib - keçənlərə,
Sərin kölgələr salardın.

Ey qüdrətli qoca çinar,
Kim sındırdı, de qəddini?
İldırımmı vurub səni?
Şimşəkmi yandırıb gövdəni?
Vaxtsız qurudub qəddini.

Məğrur çinar, uca çinar,
Həmişə yaşıl qalaydın.
Atlas, məxmər yarpaqların,
Qol-budaqların üstündə,
Kaş yenidən ucalaydın.

Kaş yenə bəzəyəydin yolları,
Günəşdən qoruyaydın insanları,
Kölgə salıb yayın istisində.
Sığınaydılar sinəndə, köksündə
Yağışın leysanında, çiskinində.

## *1.6. QUŞLARIM, HAVADA QANAD SAXLAYIN*

### QARANQUŞ

Hər çıxdıqca mən eyvana,
Gözüm sataşar boş yuvana.
Gözləyirəm, qayıtsana!
Yaz soraqlı qaranquş.

Hər tərəfi qar almış,
Yol, iz buz bağlamış.
Gəl çəkilsin boran - qış,
Gecikmə, gəl qaranquş.

Ana təbiət oyanar,
Ağaclar tumurcuqlanar.
Durnalar da qayıdar,
Gələndə sən qaranquş.

Ağ örpəyini atar dağlar,
Atlas libas geyər bağlar.
Nərgiz, bənövşə çiçək açar,
Dönəndə sən qaranquş.

Ətir saçar yasəmənlər,
Açılar qızılgüllər.
Nəğmə oxuyar bülbüllər
Görünəndə sən qaranquş.

## QARANQUŞLAR QAYIDANDA

Ana təbiət canlanır,
Qaranquşlar qayıdanda.
Həyat yenidən başlayır,
Qaranquş yuva quranda.

Gecə – gündüz bərabərləşər,
Ellər bu günü bayram edər.
Bahardan müjdə gətirər,
Qaranquşlar qayıdanda.

Qüzeylərdə qar əriyər,
Çöllər – çəmənlər göyərər.
Ağacları güllər bəzəyər,
Qaranquşlar qayıdanda.

Tarlada qızğın iş gedər,
Yer şumlayar, toxum səpər.
Çalışar zəhmətsevər ellər,
Qaranquşlar qayıdanda.

Qoyun – quzu çölə qaçar,
Nərgiz – bənövşələr açar.
Günəş torpağı qızdırar,
Qaranquşlar qayıdanda.

## BÜLBÜL

Gül budağına qonursan,
Kövrək-kövrək oxuyursan.
Qəmli-qəmli sızlayırsan,
Tökürsən göz yaşı bülbül!

Dastan olub məhəbbətin,
Vəfasızdır yarın sənin.
Hamını əfsunlayan səsin,
Əridir dağı, daşı bülbül!

Nəğmə qoşub qızılgülə,
Düşübsən dildən dilə.
Qonub tikanlı güllərə,
Tökürsən al qanını bülbül!

Köksün altı sarı, əlvan,
Qızılgülə aşiq olan.
Qonub kola sübh o başdan,
Oxuyursan yanıqlı bülbül!

Şux könlünü verdin yara,
Eşqin səni çəkdi dara.
Etdin bəxtini qara,
Ötürsən qəmli-qəmli bülbül!

Meylini salıb qızılgülə,
Eşq odundan dönüb külə.
Vəfasızlığını bilə-bilə,
Qəsd edirsən cana bülbül!

Nəğməli könlünü çaldı güllər,
Saf duyğularına biganə qaldı güllər.
Səni öz aləmindən qopardı güllər,
Oxu, gəlsin səsin bülbül!

## GÖYƏRÇİN

Sülh quşu, sülhün elçisi,
Barışıq, dostluq rəmzi.
İnsanlardan qaçmaz,
Eyvan, damlar yuvası.

Dən yeyər göyərçin dəstəsi,
Şirindir nəğməsi, səsi.
Quşların sevimlisi,
Xeyirxahlıq nişanəsi.

Damlarda yuva qurar,
Yuvaya üç yumurta qoyar.
Yuvadan boylanan balalar,
Dünyaya sülh bağışlar.

Qıy vurub səmaya uçar,
Sülh nəğməsi oxuyar.
Dünyaya əmin-amanlıq,
Sevgi, sevinc paylayar.

## QARTAL

Sıldırım qayanı məskən edərək,
Yaşadı çovğuna, istiyə dözərək.
Sirli kainata sinə gərərək,
Əngin səmalarda süzər qartal.

Yurd-yuvasına etibarlı hər vaxt,
Zirvədən aşağı enmədi heç vaxt.
Qayalar qaşında heykələ döndü,
Çəksə də çox sınağa şıltaq təbiət.

Dağlar örpəyini dumandan salar,
Şəlalələr qayalardan atlanar.
Caynağında ovu yuvaya qalxar,
Mamırlı qayaların sultanı qartal.

Dağlardanmı aldı vüqarı, dözümü?
Təbiətmi verdi hünəri, əzmi?
Yurduna vəfalı, yuvaya bağlı,
Dumanlı dağların məğrur qartalı.

Acı rüzigar döysə də qapısını,
Qoyub getmədi öz yuvasını.
Qürurla böyütdü qoşa balasını,
Xınalı qayaların sirdaşı qartal.

Yoldaş oldu əzəmətli dağlara,
Ayrılmadı əsla tufanda, qarda.
Yayda, payızda, qışda, baharda,
Tərk etmədi yuvasını vəfalı qartal.

# DURNALAR

Qatarlaşıb gedən durnalar,
Xəfif-xəfif qanad çalar.
Sanki əlvida söyləyər,
Həzin-həzin oxuyarlar.

Qəmgin-qəmgin qaqqıldaşar,
Qatarlaşıb dövrə vurar.
Asta-asta uzaqlaşar,
Ayrılıb gedər durnalar.

Buludların gözü dolar,
Durna qatarını çəkib aparar.
Qərib-qərib ötər, səmaya qalxar,
Dağların arxasında itər durnalar.

Pərişan qalıbdır boş yuvalar,
Külək ağacların saçını yolar.
Xəzələ döndərər dəli rüzigar,
Yarpaqlar, çiçəklər solar durnalar.

Sanki ayrılıq havasını çalar,
Oxuduğu kövrək mahnılar.
Uçub gedər bütün quşlar,
Ən axırda qatarlaşar durnalar.

Elə ki, göydə durna qatarı görünər,
Payız gəldim deyə, qapını döyər.
Fəsillər dəyişər, aylar ötüşər,
İlk baharla birgə dönər durnalar.

Vurğunam telinin əlvan rənginə,
Ürəkləri sızladan qəmgin səsinə.
Qəhərli-qəhərli baxar arxanca,
Yolunu gözlərəm bahar, durnalar.

## SƏRÇƏLƏR

Gecə qar yağıb,
Dağları, dərələri qar örtüb…
Kolu, kosu, hər tərəfi,
Narın qar ağ yorğana bürüyüb.
Soyuqdan büzüşərək,
Üşüyürmüş kimi sərçələr,
Qonur budaqdan-budağa,
Civildəşir boz sərçələr.
Qar içində eşələnər,
Yem axtarar səhər-səhər.
Açıb pəncərələri,
Çörək atdım, gəlmədi…
Mənə baxıb «cik-cik» etdi,
Uçub getdi sərçələr.
Mən sizi incitmərəm,
Qorxmayın, ay sərçələr.
Çörəyi dimdikləyib,
Qaçmayın ay sərçələr.
Yeyin doyunca, uzaqlaşmayın,
Sizə dən, çörək ataram.
Dəcəl uşaqlar kimi,
Mən sizi qorxutmaram.

## *1.7. FÜSUNKARDIR TƏBİƏT*

### YAZIM ŞEİRİMİ

Qızılgülün rəngini,
Bənövşənin ətrini.
Səhər bülbülün səsini,
Eşidib, yazım şeirimi.

Şah dağının vüqarını,
Başındakı örpəyini.
Qüzeyində çənini
Görüb, yazım şeirimi.

Güllü, çiçəkli bağın,
Üstü yarpızlı bulağın.
Bu yerlərin qonağı
Olub, yazım şeirimi.

## GÖZƏLDİR

Günəş gülür, çəmən, çiçək gözəldir,
Göy üzünə ulduz bəzək, gözəldir.
Ürəklərdə arzu, istək gözəldir,
Yaşamaq, yaratmaq, səadət gözəldir.

Göy gözlü mavi dəniz gözəldir,
Gözü yaşlı zərif nərgiz gözəldir.
Meşələri əsrarəngiz gözəldir,
Ecazkar ana təbiət gözəldir.

Dağ döşündə ceyran, maral gözəldir,
Zirvəsində qoca qartal gözəldir.
Kollarında şehli bənövşə gözəldir,
Ana yurdum elə həmişə gözəldir.

Vətənimin hər qarışı gözəldir,
Aranı, yaylağı, dağı, daşı gözəldir.
İlk baharı, qarlı qışı gözəldir,
Dünya, aləm, həyat gözəldir.

## GÖYLƏRDƏ SAYRIŞAN PARLAQ ULDUZLAR

Göylərin üzünə səpələnərsiniz,
Parlayar, titrəyər, şöləlǝnərsiniz.
Uzaqdan-uzağa yanıb sönərsiniz,
Aylı gecələrdə çox gözəlsiniz,
Göylərdə sayrışan parlaq ulduzlar.

Göylər bağçasının çiçəklərisiniz,
Nur yağılır süzülən gözlərinizdən.
Səmada bir-birinizə çox yaxınsınız,
Əslində uzaqsınız bir-birinizdən,
Göylərdə sayrışan parlaq ulduzlar.

Göylərin xalçası, kəhkaşansınız,
Qucaq-qucaq yerə nur paylayarsınız.
Şimşək çaxar, yağış yağar, itərsiniz,
Öz bəxtinə bir ulduz seçər hərəmiz,
Göylərdə sayrışan parlaq ulduzlar.

Dan ulduzu şəfəq saçar o başdan,
Uzaq durar buludların göz yaşından.
Rəqs edərsiniz, səma aydın-çıraqban,
Göz vurarsınız bir-birinizə uzaqdan,
Göylərdə sayrışan parlaq ulduzlar.

## ULDUZLARIN ALTINDA

Səmada ulduzlar alışıb, yanar,
Büllur çeşmələr axar, durular.
Xatirələr xəyallara baş vurar,
Bir bahar axşamında, ulduzların altında.

Füsunkar təbiət möcüzələr yaradar,
Çiçəklərin ətri bir-birinə qarışar.
Ağacların yarpaqları xəfif-xəfif pıçıldaşar,
Bir bahar axşamında, ulduzların altında.

Duman, çən örpəyini dağların başına atar,
Məcrasından çıxan çaylar kükrəyər, haray salar.
Külək salxım söyüdlərin saçlarını qopardar,
Bir bahar axşamında, ulduzların altında.

Anaların həzin laylası pərdə-pərdə ucalar,
Ən şirin duyğu kimi axıb qəlbimə dolar.
Xəyallar uzaqlaşıb, ümidlərə boylanar,
Bir bahar axşamında, ulduzların altında.

Tac qoyar zərif qönçələr çiçəklərdən başına,
Ləçəklər qərq olar şehdən göz yaşlarına.
Uzanar arzular göy qurşağı tək, dünyanın o başına,
Bir bahar axşamında, ulduzların altında.

Xəyallarım baş götürüb yaxın, uzağı dolaşar,
Ümidlərim, təsəllim bir-birinə qarışar.
Ürəklərdə həsrət döyünər, hicran susar,
Bir bahar axşamında, ulduzların altında.

Gözlərimdən şeh ələnər məxmər otların üstünə,
Saçlarıma sığal çəkər xəfif bir meh ahəstə.
Könlüm laylay istər, başım anamın dizi üstə,
Bir bahar axşamında, ulduzların altında.

Qumlu sahillərə tələsər gümüş ləpələr,
Bakımıza layla çalar mavi gözlü Xəzər.
Əriyər qaranlıqlar, gecə yerini səhərə verər,
Bir bahar axşamında, ulduzların altında.

## YOLA BOYLANAR

O başdan üfüqdə günəş qızarar,
Mavi dəniz al şəfəqə boyanar.
Bir-birini qovar dəli dalğalar,
Gümüş ləpələr sahilə boylanar.

Yaşıl libasını geyinər meşə,
Nərgiz qucağını açar günəşə.
Yuxulu gözlərini açar bənövşə,
Utancaq-utancaq kola boylanar.

Təbiət ecazkar lövhə yaradar,
Ağaclar rəng-rəng gül-çiçək açar.
Sahil boyu göyərər salxım söyüdlər,
Saçlarını yolar dəli küləklər.

Tənha duruşu ilə iydə ağacı,
Ətri ilə bürüyər çölü, yamacı.
Sarı çiçək dolu şehli budağı,
Meh vurduqca sağa-sola boylanar.

Bəmbəyaz görünər səmada buludlar,
Axar, nəğmə deyər büllur bulaqlar.
Dağların ətəyinə al-qan çiləyən,
Qara xallı lalələr çölə boylanar.

Bağlarda quşlar səs-səsə verər,
Meşələr öz yaşıl donunu geyər.
Dönər durnalar, qu quşu, leyləklər,
Yaşılbaş ördəklər gölə boylanar.

Səidə düşünər, xəyala dalar,
Kövrək xatirələri baş qaldırar.
Qəlbində saf duyğu, şirin arzular,
Fikirli-fikirli yola boylanar.

## KÜLƏKLƏR

Gecə, axşam, səhər,
Qəfildən xəbərsiz gələr.
Ərki çatan dostlar kimi,
Qapımı, pəncərəmi döyər,
Dünyanı dolaşan küləklər.

Dağı, daşı aşıb gələr,
Kol-kosu yıxıb sürüyər.
Güllərdən şeh yığar mehi,
Yay gətirər sərinliyi,
Dənizdən sərin küləklər.

Quşların yuvalarını uçurar,
Salxım söyüdlərin saçını yolar.
Budaqlardan yarpaqları qopardar,
Payız qoz ağacından qoz da yağdırar,
Dəlisov küləklər, hirsli küləklər.

Tufanında yatmaq olmur səsindən,
Qopardar ağacları kökündən.
Alar qisasını hərdən dənizdən,
Dənizdə çimənlərin nakam ömründən,
Dalğaları atıb-tutan küləklər.

Küləklər şəhəridir doğma vətənim,
Səadətlə açılar nurlu səhərim.
Bakımın aynası mavi Xəzərim,
Sərin mehi, xəzrisi, məlhəmim,
Sahildə xəfif-xəfif əsən küləklər.

## YAĞIŞ

İsti yay bürküsündə,
Yağış yağır səpə-səpə.
Yaşıl yarpaqlar üstündə,
Büllur damcılar parlayır.

Buludlar kövrəlib sıxlaşır,
Göy gurlayır, şimşək çaxır.
Yağış yağır, küçələrlə
Sular şırhaşır axır.

Göydən yerə şıdırğı,
Dayanmadan yağış yağır.
Yarpaqlardan damcılar,
Sırğa kimi sallanır.

Yağan yağışın səsi,
Xatırladır musiqini.
Damcıların rəqsi,
Heyran edir hər kəsi.

Yuyunur tərtəmiz şəhər,
Cana gəlir tər çiçəklər,
Ağaclar, bağlar, bağçalar.
Yağış nəyə desən dəyər.

Günəşli, işıqlı səhər,
Şəfəqə bürünür bəşər.
Göy üzündə rəngbərəng
Göyqurşağı görünür.

## GÖY QURŞAĞI

Göy gurlayar, şimşək çaxar,
Şırhaşır yağış yağar.
Yaşıl məxmər yarpaqları,
Yuyar yağış damcıları.

Boz buludlar dağılar,
Göyün üzü açılar.
Görünər göy üzündə,
Al-əlvan göy qurşağı.

Çöl-çəməndə ayaqyalın,
Qaçar, sevinər uşaqlar.
Göy üzünə körpü salan,
Göy qurşağına heyrətlə baxar.

Dolanar dünyanın o başına,
Rəngarəng, əlvan göy qurşağı.
Yerə, göyə, hər yana,
Şəfəq saçar göy qurşağı.

## DOSTLAR, TƏBİƏTİ SEYR EYLƏYƏK!

Yenə yaz gəlib, qaynayır həyat,
Yaşıl tülə bürünüb indi təbiət.
Kəpənəklər gül üstündə rəngbərəng,
Dostlar, təbiəti seyr eyləyək!

Şəhərimiz gözəl, əsrarəngiz,
Göz oxşayır mavi dəniz.
Ucalsın şaqraq nəğməmiz,
Dostlar, təbiəti seyr eyləyək!

Bu torpağa gülşən deyək,
Ana deyək, Vətən deyək.
Şadlanaq, sevinək, gülək.
Dostlar, təbiəti seyr eyləyək!

## DƏNİZƏ VURULMUŞAM

Sahil boyu gəzirəm,
Özümü unutmuşam.
Mən dənizi sevirəm,
Dənizə vurulmuşam.

Tökər qızıl tellərini,
Sübh şəfəqi aləmə.
Dəcəl, gümüş ləpələri,
Külək qovar sahilə.

Sahil bağı füsunkar,
Əsir soyuq rüzigar.
Coşan dəli dalğalar,
Qayaları qucaqlar.

Qağayılar qanad çalar,
Mavi dənizə baş vurar.
Gözdən itər gəmilər,
Yavaş-yavaş uzaqlaşar.

Doğma Bakımın aynası,
Mavi gözlü Xəzərim.
Geniş qoynunda uyuyar,
Bu möhtəşəm şəhərin.

Sanki şirin layla deyər,
Şıltaq, qırçın ləpələr.
Dəniz qoxusu verər,
Açılan hər səhəri.

Qəlbimə məlhəm havası.
Gecəmin şirin laylası.
Mən dənizi çox sevirəm,
Mən dənizə vurulmuşam.

## TƏBİƏTİ GÖZƏLLƏŞDİRƏN İNSANDIR

Nə olmuş təbiətə? Dalğındır insan kimi,
Dayanıb buludlar, yorulmuş karvan kimi.
Bu dağların örpəyi dumandırmı, sisdirmi?
Əsən sərin küləkmi, yoxsa xəfif mehdimi?
Təbiətin göz yaşları yarpaq üstə şehdimi?

Gecə sakit, yerlər, göylər işıqlı…
Ay nur səpir, ulduzlar yaraşıqlı.
Bağça gül-çiçək, aynabənd sarmaşıqlı,
Kim deyir ki, cənnət yoxdur, yalandır,
Təbiəti gözəlləşdirən hər an insandır.

Həyat qəribədir, dünya nağıllar kimi,
Kövrələr qəlbim, dolar buludlar kimi.
Xəyalım dolanar pərvanələr kimi.
Hər dərdə çarə tapan zamandır,
Təbiəti gözəlləşdirən hər an insandır.

Təbiət möcüzə, kainat sirli-soraqlı,
Hər tərəf göy meşə, sinəsi sərin bulaqlı.
Şəlalələr sanki gəlindir ağ duvaqlı.
Kim deyir ki, ömür xoş bir xəyaldır,
Dünyanı gözəlləşdirən hər an insandır.

## TƏBİƏTİN MÖCÜZƏSİ

Çıxmışdım təbiətin seyrinə,
Düşdüm gül-çiçək dənizinə.
Sehirləndim quşların səsinə,
Rəngarəng güllərin ətrinə.

Kol dibinə qısılan bənövşələr,
Mürgülü-mürgülü boylanar.
Oxuyan quşların nəğməsinə,
Novruzgülləri oyanar.

Meh dəydikcə titrəyər,
Məxmər otlar yamaclarda.
Yaşıl paltarını geyinər,
Yarpağı şehli ağaclar da.

Günəş dağıdar köksünə tellərini,
Dağlar dumandan salar örpəyini.
Heyrətlə süzərək bu möcüzəni,
Şehli-şehli dərdim tər çiçəkləri.

## SEVİRƏM TƏBİƏTİ

Çox sevirəm təbiəti,
Yaşıl meşəni, çəməni.
Ana təbiətin qoynunda,
Dincəlməyi, gəzməyi.

Yamaclardan, düzlərdən,
Tər çiçəklər dərməyi.
Bumbuz diş göynədən,
Bulaqdan su içməyi.

Gözəldir ağ örpəkli,
Başı qarlı dağları.
Coşub-daşan, kükrəyən,
Haray salan çayları.

Dumanlı yaz səhəri,
Çiskin yağan yağışı.
Dolanma dağ cığırı,
Çiçəkli bulaq başı.

Bulud karvanını çəkər.
Günəş göydən nur səpər.
Quşlar səs-səsə verər,
Qəlbi dağa dönər ana torpağın.

Quşların nəğməsi axar qəlbimə,
Qıy vurar qartallar, qalxar zirvəyə.
Təbiət yaradar rəngarəng lövhə.
Bu gözəllik sərvətidir qara torpağın.

## ÇOX SEVİRƏM

Sevirəm gəzməyi yazda meşəni,
Yaşıl yamacları, çölü, çəməni.
Laləni, nərgizi, tər bənövşəni,
Geniş zəmilərdə sünbül ətrini.

Qərib axşamlar da tar-kaman səsini,
Segah üstündə muğam zənguləsini.
Pəncərədən küçəyə axan körpə səsini,
Körpəsinə ananın şirin layla deməsini.

Yuvasından boylanan qaranquş balalarını,
Ağ dumandan örpək salan dağlarını.
Qayalarda sızan yarpızlı bulaqlarını,
Ceyran, cüyür gəzən kəklikli oylaqlarını.

İlk bahar fəslinin ılıq nəfəsini,
Sığırçının, bülbülün nəğməsini.
Elini, obasını sevən hər kəsi,
Doğma vətən kəlməsini, ana səsini.

## TƏBİƏTİN TÖHFƏSİ

Şeir könlün sədasıdır,
Mahnı yurdun sədasıdır.
Gözəl kəlmə hər kəsin,
Saf qəlbinin aynasıdır.

Xəzərin şıltaq dalğası,
Meşənin çiçək talası.
Quşların cəh-cəh vurması,
Təbiətin ecazkar löhvəsidir.

Uzaq keçmişi qürurla dolu,
Muğamı, segahı əbədiyyat yolu.
Elimin, yurdumun hər igid oğlu,
Hərəsi bir gözəlin divanəsidir.

Təbiət dünyaya möcüzələr bağışlar,
Gülün yaxasını küləklər  açar.
Əlvan çiçəklər günəşdən rəng alar,
Bülbüllər qızılgüllərin pərvanəsidir.

Bürünüb gül-çiçəyə çəmənlər,
Köz kimi alışıb düzdə lalələr.
Qayalardan sızan sərin çeşmələr,
Ana təbiətimin töhfəsidir.

## BU DAĞLARIN

Göz açıb boy atmışam,
Qucağında bu dağların.
Zirvəsinə boylanmışam,
Başı qarlı bu dağların.

Başı çən, çiskin, duman,
Ətəyində gömgöy orman.
Axar qoşa bulaqlar,
Sinəsindən bu dağların.

Sıldırımlı qayaları,
Qartalların yuvaları.
Dağ keçisi, ceyranları,
Yaraşığı bu dağların.

Yaşıl libas geyər bahar,
Hər qayasında çiçək açar.
Çeşmələri yerdən qaynar,
Çöllərində bu dağların.

Qüzeylərdə qar görünər,
Yamacında sürü mələr.
Turac ötər, kəklik səkər,
Çəmənində bu dağların.

Ətəyində sıx ormanlar,
Dərəsində çağlar sular.
Kirpi, dovşan yuva salar,
Kollarında bu dağların.

Qulançarı, moruğu,
Gicitikən, qatırquyruğu.
Yarpızı, baldırğanı,
Dərmandır bu dağların.

Cənnətdir baharı, yayı,
Döşü çiçəkli, laləli.
Qışı tufanlı, boranlı,
Çovğunludur bu dağların.

Zirvəsində ildırım çaxanda,
Şıdırğı yağış yağanda.
Köklü sal qayanın dibində,
Gizlənəsən bu dağların.

Qara xallı lalələri,
Kəkotu, dağçiçəyi,
Qaymaqçiçəyi, çiyələyi,
Can dərmanı bu dağların.

Saçlarını meh darasın,
Ayağın şehdə islansın.
Yorğunluğun yaddan çıxsın,
Havasından bu dağların.

Qanad çalan qartalları,
Qıy vuran laçınları.
Qırqovulu, maralları,
Bəzəyidir bu dağların.

Yamacında dolaşaram,
Nəğmə, şeir qoşaram.
Tər çiçəyini toplayaram,
Yaz çağında bu dağların.

## QAX

Ətrafı meşəlik, qoynu gül-çiçək,
Dağlarının başı duman, çən, çisək.
Yerdən qaynayan bulaqları buz tək,
Sanki dağların qoynunda cənnətdir Qax.

Yol boyu sıx meşələr uzanar,
Xırdaca-xırdaca yağışı yağar.
Çən, çiskin içində günəş boylanar,
Təbiəti möcüzə, havası dərmandır Qax.

Dumanlı dağların qoynunda İlisu,
Bir tarixdir hər bürcü, hər qalası.
Balakən, Zaqatala, bir yanda Şəki,
Vüsalın hər kəsə səadətdir Qax.

Dahi sənətkarın doğulduğu Qum kəndi,
Qoynunda Nizami Gəncəvinin heykəli.
Sərin Ballı bulağı, Ləkit şəlaləsi,
Qonaqpərvər cənnətməkandır Qax.

## Kəpənək

Qonma çiçəkdən-çiçəyə,
Qanadından zər tökülər.
Bənzərsən əlvan çiçəyə,
Bir-birindən əlvan kəpənək.

Zərif yaradıb təbiət səni,
Əsirgəməyib min bir rəngini.
Tutmaq istəyirəm səni,
Çiçəksən, çiçəyə qonma kəpənək.

Zərli qanadların əlimdə qalır,
Bəzəyin hər kəsi heyrətə salır.
Yaşıllıq içində çiçəyi xatırladır,
Al-əlvan rəngli kəpənək.

Mən sənə yaxından baxmaq istərəm,
Qaçıram dalınca tutmaq istərəm.
İncə qanadlarına toxunmaq istərəm,
Təbiətin möcüzəsi zərli kəpənək.

Ecazkar gözəlliyin əsrarəngiz,
Səmaya uçursan ahəstə, səssiz.
Qaçıram dalınca yorğun, taqətsiz,
Gülsən, güldən gülə qonma kəpənək.

Təbiət verib min bəzək sənə,
Yaraşıqsan gül-çiçəkli çəmənə.
Nə qədər də qaçsam, çatmıram sənə,
Rəngbərəng, zərif qanadlı kəpənək.

Sən necə qəşəngsən, incə, zərifsən,
Bağ-bağçanın bəzəyisən, gözəlsən.
Zərif qanadlı ecazkar əfsanəsən,
Çöl-çəmənin şahzadəsi kəpənək.

## DOVŞANIM

Qorxa-qorxa dayanıb,
Deyəsən yaman acıb.
Kələm, kök axtarır,
Mənim ağ dovşanım.

Ətrafa göz gəzdirir,
Qulaqlarını şəkləyir.
Bığlarını əsdirir,
Yayda qonur dovşanım.

Alabaşı, Məstanı,
Görüb heyrətdən çaşır.
Gizlənməyə çalışır,
Titrəyərək dovşanım.

Mən səni incitmərəm,
Heç xətrinə dəymərəm.
Kələm, kök verərəm,
Mənim çəpgöz dovşanım.

Mən səni çox istərəm,
Yedizdirib, bəslərəm.
Meşəyə ötürərəm,
Yaz gələndə dovşanım.

# 2. AİLƏM

## *2.1. BİR MƏLƏKDİR MƏNİM NƏNƏM*

### NƏNƏLİ DÜNYAM

Məharətlə gizlədir,
Nənəm ağrılarını.
Gizlicə balışa tökür,
Gecələr göz yaşlarını.

Yorğun, üzgün görünsə də,
Ağrılarını gizlətsə də.
Yalandan gülümsəsə də,
Hiss edirəm əzablarını.

Sən mənə dayaqsan, ay əziz nənə,
Niyə qoymayırsan qayğını çəkəm?
Məndən gizlətsən də ağrılarını,
Gözündən oxudum narahatlığını.

Sən səadət dolu işıqlı dünyam,
Sən möcüzə dolu nağıllı dünyam.
Anamın anası, mənim öz anam,
Niyə gizlədirsən ağrılarını?

Məndən gizlədirsən baxışlarını,
Sənə əzab verən ağrılarını.
Üzmək istəmirsən doğmalarını,
İcazə ver darayım ağ saçlarını.

Nə olar Allahım eşit duamı,
Çox görmə mənə nənəli dünyamı.
Nənəm mənim qəlbim, canımdır,
Mənim varlığımdır, qibləgahımdır.

## BİR DƏNƏSƏN NƏNƏ

Ağlama, ağlasan sehir pozular,
Alın yazıları çətin pozular.
Ocaqda qonaqdır demişlər qızlar,
Oğuldur ocağın sahibi nənə.

Taleyin işinə qarışmaq olmaz,
Keçənə güzəşt de, qaytarmaq olmaz.
Sənin sükutunla barışmaq olmaz,
De, danış, bu ocağı şənləndir nənə.

Səbir eylə, Tanrı bizi də sevindirər,
Açılar bir gün bağlı düyünlər.
Bir gün müşgül işlərimiz düzələr,
Haqqa dua et, darıxma nənə.

Almısan hər cürə nemətimi sən,
Çəkmisən həmişə zəhmətimi sən.
Qayğı göstərib nazımı çəkmisən,
Səndən yoxdur, bir dənəsən nənə.

## ƏZİZ NƏNƏMƏ

Gözlərinə baxıram,
Sanki mavi dənizdir.
Mənə qayğın, zəhmətin
Sonsuzdur, əvəzsizdir.

Mənə sevgin, diqqətin,
Müqəddəsdir, əbədidir.
Mənə qol-qanad verən,
Sənin məhəbbətindir.

Səninlə bölüşmüşəm,
Sevincimi, qəmimi.
Təmannasız çəkmisən,
Mənim əziyyətimi.

Anamdan da yaxınsan,
Doğmasan sən mənə.
Yardımçım olmusan,
Çatmısan köməyimə.

Hərdən uşaq olmusan,
Mənə qoşulmusan.
Verib əl-ələ gəzərək,
Mənə yoldaş olmusan.

Həmişə məsləhətlərin,
Doğru yol göstəribdir.
Bəzən mənə qışqıranda
Xətrimə dəyməyibdir.

Ağlayanda, sevinəndə,
Sən yanımda olmusan.
Səhərin dan ulduzu tək
Gözlərimə dolmusan.

Dünyada ən müqəddəs
Bir anadır, bir Vətən!
Mənim üçün biri də var,
Nənəcan… O, Sənsən Sən!

## NƏNƏM

Nənəm barıt çəlləyidir,
Sözü qılınc kəsərlidir.
Zəhmindən dağ oynar yerindən,
Çəkinməz heç bir kimsədən.

Danışanda dinləmişəm, susmuşam,
Gecə-gündüz qulluğunda durmuşam.
Tək olanda ona həyan olmuşam,
Nəvədən çox yaxın sirdaş olmuşam.

Yaz buludu kimi kövrəkdir nənəm,
Yağış olub ələnər heç nədən.
Nəvazişlə oyadar hər səhər,
Sevə-sevə qayğımı, nazımı çəkər.

Səliqəli, zövqlə geyindirər məni,
Tələbkarlıqla izləyər dərsimi.
Mehriban olsa da ağırdır zəhmi,
Anamdan da çox sevirəm nənəmi.

Sirli kainatda, eniş-yoxuşlu həyatda,
Mənim ən yaxınım, məsləhətçimdir.
Güvəndiyim, arxalandığım bu dünyada
Yüksək səviyyədə tərbiyə verənimdir.

## *2.2. XATİRƏMDƏ YAŞAR BABAM*

### ŞƏMMƏD BABAMA!

Bir göz qırpımında ürəyin dayandı,
Sənin üçün bir daha səhər açılmadı.
Yoxluğun taleyin sinə dağıdır,
Baba, yoxluğun nə ağır imiş…

Qara torpağa tapşırdılar səni,
Müqəddəs arzular yarımçıq qaldı.
Hamıdan çox sarsıtdın məni,
Səndən bir ömürlük xatirə qaldı.

Təsəlli üçün söz tapmaq çətindən çətin,
Heç yadımdan çıxarmı kövrək xatirələrim.
Arxayın, sakit, səssiz-səmirsiz yerişlərin,
Həzin qımışmaq idi sənin qəhqəhələrin.

Xeyirxah, təmkinli insan idi adın,
Beləcə yaşadın sən xatirələrdə.
Gülümsəyib başını yırğalayırdın,
Bəzən acıqlanıb hirslənəndə də.

Gedənlər geriyə qayıtmaz daha,
Qalanları tapşırdın böyük Allaha!
Yaxınlaşdıqca oturduğun stula, divana,
Qərq olurlar mənim göz yaşlarıma.

Payız xəzəlisən, həzin, nisgilsən,
Təmiz vicdan ilə vaxtsız öldün sən.
Axı sən comərdsən, sözü bütövsən,
Bizi yalqız qoyub getdin bəs nədən?

Mənə nağıl söyləyərdin körpə yaşımda,
Barmaqların gəzərdi zərif saçımda.
Neçə illər dolanıb, gəlib keçsə də,
İnam ocağım məzarın olacaq yenə.

Ağ libas geysin dünyamız, şəfəqlə dolsun,
Baba qəbrin nurla dolsun, ruhun şad olsun.
Kaş dünyada hər ölən özündən sonra,
Sənin kimi yaxşılıq, saflıq qoysun.

Kövrək xatirələr indi bizə təskinlik,
Tez-tez məzarının üstünə ziyarətə gəlirik.
Məzarın üstə tər qərənfillər düzürük,
Göynəyə-göynəyə acı göz yaşları tökürük.

## DAĞÇİÇƏYİM

Babam məni dünya qədər sevərdi,
Başımı tumarlayıb, əzizləyərdi.
Verərdi həmişə öyüd-nəsihət,
Dünyəvi - aləmdən edərdi söhbət.

Deyərdi, «babanın ağıllı balası,
Gözlərimin işığı, ağı-qarası.
Mənim göyərçinim, dağçiçəyim,
Qəlbimim bir parçası, körpə fidanım.

Qulaq as, həmişə böyüklərinə,
Əməl et onların dediklərinə.
Oxu, çalış, fikir ver dərslərinə,
Dürüst, sadiq böyü ana vətəninə.

Dağçiçəyim, xoşbəxt olmaq istəsən,
Gərək savad alıb, elm öyrənəsən.
Tərbiyəsiz, kobud, özünü sevən,
Tənbəl uşaqlardan kənar gəzəsən.

Geniş qoynu ümmandır vətənin,
Vətən adlı öz yuvan var sənin.
Rəğbətini qazanaraq hər kəsin,
Ağıllı, gözəl bir qızı ol dünyanın.

Uca tut adını böyük Tanrının,
Gözlə hörmətini daim ananın.
O, başının sığalı, arzun, amalın,
Həyatda başı uca, üzüağ olarsan.»

## 2.3. BAŞIMIN TACI ANA

### ANA XEYİR-DUASI

Anadır bizlərə nurlu həyat verən,
Məni, səni bu dünyaya gətirən.
Beşik üstə səhərəcən mürgüləyən,
Təmannasız qayğımızı çəkib böyüdən.

Anadır gecə-gündüz dinclik bilməyən,
Yorğunluğunu unudub, əziyyətimizi çəkən.
Zaman illəri qırov kimi saçlarına ələyən,
Sevincini bizə verib, kədərini gizləyən.

Alnındakı qırışlar illərin nişanəsi,
Laylaları həyatın ən şirin təranəsi.
Analar Tanrıdan bir ərmağandır,
Övlada dayaqdır, qoldur, qanaddır.

Ana xeyir-duası ömür yollarımıza çıraq,
Titrək barmaqları saçlarımıza daraq.
Böyüdüb bizi evdə, işdə çalışaraq,
Ömründən illərə gün calayaraq.

## ÖZ ANAMI İSTƏRƏM

Səhər tezdən oyatmağa,
Məktəbə yola salmağa.
Çantamı verib əlimə,
Dalımca su atmağa,
Öz anamı istərəm.

Məktəbdən dönən zaman,
Üzümə qapını açan.
Qucaqlayıb başımı sığallayan,
Tələsik nahar hazırlayan,
Öz anamı istərəm.

Dərsimə nəzarət edən,
Gündəliyimi vərəqləyən,
Sevə-sevə tərifləyən,
Bəzən kəskin tənqid edən,
Öz anamı istərəm.

Axşam girəndə yerimə,
Yorğanı çəkib sinəmə.
Hərdən edən zümzümə,
Mənə şirin laylay deyən,
Öz anamı istərəm.

## ANAM BİLMƏSİN

Ayağım burxuldu, yıxıldım birdən,
Dözürəm ağrıya dolub qəhərdən.
Yaylıqla silirəm qanı dizimdən,
Ağlayıb hamıdan xahiş edirəm,
Anama deməyin, anam bilməsin.

Nənəm başımı sığallayır,
İpək saçlarımı külək darayır,
Sevgisi, məhəbbəti dünya qədərdir.
Bilirəm, nənəm qoy inciməsin,
Bu anda arzuladım mən öz anamı.

Sevincimə, kədərimə ortaq əzəldən,
Ulu Tanrı onu ayırma məndən.
Kimsə ürəyimə toxunsa əgər,
Əgər kimsədən küsüb incisəm,
Anama deməyin, anam bilməsin.

## ANALAR

Açılan nurlu sabahımız,
Sevgi dolu varlığımız.
Qolumuz, qanadımız,
Analardır, analar.

Daim bizi əzizləyən,
Öz canından artıq sevən.
Ömrünü şam tək əridən,
Analardır, analar.

Nurlu gözlərin işığı,
Hər ocağın yaraşığı.
Gözlərində sevinc yaşı,
Analardır, analar.

## ANAMA

Dünyaya göz açdın gözəl Tiflis şəhərində,
Körpəlikdən biliyə həvəs vardı qəlbində.
Varlığınla bağlandın təhsilə, elmə,
Ucaldın pillə-pillə layiq olduğun yerə.

Sevə-sevə, dincəlmədən çalışdın,
Gecəli-gündüzlü yazıb-yaratdın,
Nəhayət elmdə zirvəyə qalxdın,
Həyatda istədiyin arzuya çatdın.

Bu da bir zamandır gəlib çatmısan,
Zəhmətinlə, zəkanla, savadınla ucalmısan.
Fərasətinlə, ləyaqətinlə zirvədə dayanmısan,
«Qızıl qələm» mükafatına layiq görülmüsən.

Həyatda hamıya oldun səmimi,
Verdin gilə-gilə qəlbindəki sevgini.
Boş-boşuna keçirmədin ömrünü,
Çovğunu da səfalıdır bahar kimi.

Ömrün-günün keçib nurlu, qürurlu,
Vətəninə layiqli, xalqına sayqılı,
Eşq olsun Vətənimin alim qızı!
Sənin varlığınla qürur duyuram.

Bir dan ulduzu tək yanıb, alışıb,
Gecəni səhərəcən daim çalışıb.
Elmi işlərinə başın qarışıb,
Qara tellərinə tək-tək dən düşüb.

Sənin bər-bəzəyin kitablar oldu,
Ömrün dağ çeşməsi tək axıb duruldu.
Varlığım həyatının mənası oldu,
Təlatümlü həyatın sevinclə doldu.

## KÖNÜL TƏRANƏSİ

Əl çatmayan ümmansan,
Ülvi, kövrək xəyalsan.
Həzin, şirin laylasan,
Könlümün şah sarayında, oturarmısan?

Gecəni gündüzə caladı illər,
Əfsanə, möcüzə yaratdı illər.
Məni sənli dünyamdan qopardı illər,
Dönüb sənli dünyamı qaytararmısan?

Sənə məhəbbətim sonsuz, möhtəşəm,
Elə sənin üçün dünyaya gəlmişəm.
Ana məhəbbəti, ana dünyası,
Hər şeydən əzəldir nə qədər varsan.

Anasız həyatda xoşbəxtlik olmaz,
Ananın qəlbinə toxunmaq olmaz.
Ana laylası, bala sevgisi,
Dünyanın ən şirin könül təranəsi.

Bu geniş dünyada ümidim sənsən,
Varlığınla həyatımı bəzərsən.
Həmişə harayıma gələrsən,
Mənimlə fəxr edər, sevinərsən.

## SEVDİM MƏN SƏNİ

Çıxaraq zamanın sınaqlarından,
Güc aldım təmannasız qayğılarından.
Xeyir-dua eşidib dodaqlarından,
Yol açdım işığa qaranlıqlardan,
Məni sevdiyin kimi sevdim mən səni.

Sən mənim gözümün ağı-qarası,
Nisgilli könlümün parlaq aynası.
Qərib gecələrimin şirin röyası,
Sən günəş, mən onun zərif şüası,
Məni sevdiyin kimi sevdim mən səni.

Həmişə xəyalların tutub əlimdən,
Dolaşan cığırıma işıq salıbsan.
Sən mənim ömrümün zili, bəmisən,
Sən mənim and yerim, Məkkəm, Mədinəm,
Məni sevdiyin kimi sevdim mən səni.

Şair xəyalımın ilhamı, sehrisən,
Narahat könlümün təlatümüsən.
Qüssəyə, kədərə çəpər çəkmisən,
Bütün həyatını mənə vermisən,
Məni sevdiyin kimi sevdim mən səni.

Sənsən həyatıma gözəllik verən,
Şirin duyğularıma sevinc ələyən.
Sonsuz arzularıma qol-qanad verən,
Sənli günlərimin həsrətindəyəm,
Məni sevdiyin kimi sevdim mən səni.

Sən dağın zirvəsi, mən ağ örpəyi,
Ömür yollarımın qürur mənbəyi.
Ürəyimin təsəllisi, pənahı, köməyi,
Ümidim, vüqarım, fəxrim, dayağım,
Məni sevdiyin kimi sevdim mən səni.

Ömrünə xoş ümid kimi gəlmişəm,
Ağ dən olub saçlarına ələnmişəm.
Sevgi olub ürəyində bitmişəm,
Xoşbəxtliyə, xoş günlərə səsləmişəm,
Məni sevdiyin kimi sevdim mən səni.

Qəlbimdən dağıdıb qəm yuvasını,
Həsrətdən doğulan qüssə, hicranı.
Xəyalımın ümidini işıqlandırdı,
Sənli günlərimin şirin vüsalı,
Məni sevdiyin kimi sevdim mən səni.

Gözlərinə nur, işıq verməyə,
Bütün xəyallarını gerçəkləşdirməyə.
Ömür bağçasını rövqləndirməyə,
Səni sevindirmək üçün gəldim dünyaya,
Məni sevdiyin kimi sevdim mən səni.

Ömür yollarını nurlandırmağa,
Hər gələn gününü mənalandırmağa.
Qəmli günlərinə kölgə salmağa,
Səni xoşbəxt etmək üçün gəldim dünyaya,
Məni sevdiyin kimi sevdim mən səni.

Soyundurub əynindən qəm libasını,
Silib gözlərindən kədər yağışını.
Xiffətdən köksünə əyilən başını,
Uca tutmaq üçün gəldim dünyaya,
Məni sevdiyin kimi sevdim mən səni.

## KAŞ MƏNİ DANLAYAYDI

Bir gün dərsdən çıxanda,
Qoşuldum İlahəyə.
Mağazaları gəzib,
Gecikdim xeyli evə...

Evə gələndə nənəm,
Yamanca hirsləndi.
Üstümə qışqırıb,
O ki, var söyləndi.

Anam bir söz deməyib,
Sakitcə susdu ancaq.
Sanki dindirən olsa,
Od tutub alışacaq.

Kaş anam susmayaydı…
Nə ki, var danlayaydı.
Qışqıraydı, deyəydi
Ürəyindən keçəni.

Üzümə baxmadı anam,
Sanki, bu evdə yoxam.
Mənim də üzüm gəlmədi,
Onun üzünə baxam.

Susdu süfrə arxasında,
Susdu iş görəndə də.
Elə bil görmür məni,
Yanımdan keçəndə də.

Sanki unudub daha,
Onun qızı deyiləm.
Xəcalətdən az qala,
Əriyib yerə girəm.

Anacan, söz verirəm,
Bir də təkrar etmərəm.
Dərsdən çıxan kimi,
Vaxtında evə gələrəm.

Dönüb üzümə baxdı,
Boynumu qucaqladı.
Bu işıqlı dünyanı,
Sanki mənə bağışladı.

## YUXU GETMİR GÖZLƏRİMƏ

Həyacandan bütün gecə,
Yuxu getmir gözlərimə.
Cəmi bircə gecə qalıb,
Anamla görüşməyimə.

Əllərimdə gül-çiçək,
Mən keçirəm salona.
Atılıb onu görcək,
Sarılıram boynuna.

Nəvazişlə söyləyir:
«Salam, əziz balam!»
O, məni qucaqlayır,
Mən ona sarılıram.

Evə yola düşürük biz,
Sevinirik hər ikimiz.
Həyacanla çırpınır,
Sevinc dolu qəlbimiz.

Soruşur dərslərimi,
Göstərirəm gündəliyimi,
Görüb qiymətlərimi,
Bağrına basır məni.

## SƏN OLMASAYDIN ANA

Əgər sən olmasaydın,
Baş götürüb gedərdim.
Çəmən sənin, çöl mənim,
Dünyanı tərk edərdim.

Əgər sən olmasaydın,
Mən qəhrimdən ölərdim.
Səni tapmaq üçün,
Yenidən cahana gələrdim.

Əgər yenidən gəlsəm cahana,
Qalxıb arzuların şah zirvəsinə,
Sevgi çiçəyindən çələng hörərdim,
Tac kimi qoyardım sənin başına.

Calayıb gecəni-gündüzə,
Ulduz olardım bəxtinə.
Yaradıb yeni möcüzə,
Yenidən səni kəşf edərdim.

Qalxardım göylərin yeddi qatına,
Bəyaz asimana, mavi səmaya.
Üzümü tutardım böyük Tanrıya,
Yalvarıb bəşərdən səni istərdim.

## SƏNSİZ

Yenə gəldi yaz ayları,
Bəzədi düzü, yamacları.
Həsrət qondu gözlərimə,
Sənsiz qarşıladım baharı.

Gülüşün dağ şəlaləsi,
Baxışın bahar nəfəsi.
Sən ömrümün baharısan,
Yanaqların dağ laləsi.

Açılan bəyaz səhərim,
Mənim çarpan ürəyim.
Sənsiz bir ilə dönər,
Siyah, qərib gecələrim.

Gözlərimin qarası,
Ürəyimin bir parçası.
Səidənin ilham dünyası,
Xəyalım, varlığımsan.

## TELEFON ZƏNGİ

Sən məndən çox uzaqlarda olsan da,
Sanki yaxınımdasan, telefonla danışanda.
Eşidəndə səsini, duyuram nəfəsini,
Elə bil görürəm üzünü, gözlərini.

Telefonla söyləyirəm ürəyimdən keçəni,
Qarşımdasan kimi dinləyirəm səni.
Məlahətli səsini, şirin kəlmələrini,
Gözləyirəm həyacanla telefon zənglərini.

Danışırsan telefonda aramla,
Sevinc qonur, boylanır yollarıma.
Sənsiz yaman darıxmışam, amma,
Kövrəlmişdim səndən ayrılanda da.

Susmuşam, xəstələnib başım ağrıyanda,
Tək sənin həsrətinlə ağlamışam dünyada.
Sənə sonsuz sevgimi anıb, darıxanda,
Təsəllim səninlə danışmaqdı telefonda.

Hicran qəlbimdə, həsrət köksümdə,
Əriyib yox olur bir telefon zənginlə.
Nurla bəzənir dünya mənim gözlərimdə,
Sanıram qarşımdasan, telefonla danışanda.

Xəyalım yollardan yığışıb gəlir,
Canlanır gözümdə zərif gülüşlərin.
Gül çöhrəndə xoş təbəssümlərin,
Sanki gözümün önündəsən, telefonla danışanda.

Vaxt təzə qar kimi əriyər,
Dünya, təbiət, qəlbim sevinər.
Bütün kainatı gül-çiçək örtər,
Üzümdə günəş doğar telefonla danışanda.

## ÖYRƏDƏ BİLDİMİ?

Analar övladlarına danışmağı öyrətdi,
Susmağı necə, öyrədə bildimi?
Analar övladlarını sevə-sevə böyütdü,
Zəhmətə alışmağı necə, öyrədə bildimi?
Analar övladlarına yazmağı, oxumağı öyrətdi,
Vətən uğrunda vuruşmağı necə, öyrədə bildimi?
Müqəddəsdir Azərbaycan torpağı!
Genişdir, görünmür ucu-bucağı,
Güllüdür, çiçəklidir Aranı, dağı,
Analar onu qorumağı necə, öyrədə bildimi?

## ANA SƏNİ GÖZLƏYİRƏM

Nə yerdəyəm, nə göydəyəm,
Könül dolu sevincəyəm.
Bər-bəzək həvəsindəyəm,
Fərəhlə səni gözləyirəm.

Həsrətlə gözləmişəm səni,
İlıq nəfəsini, şirin səsini.
Qayğını, sevgini, nəvazişini,
İntizarla səni gözləyirəm.

Sən mənim ürəyimdəsən,
Xəyalımda, düşüncəmdəsən.
Hər zaman sən mənimləsən,
Səbirsizliklə səni gözləyirəm.

Sən mənim nurlu sabahım,
Geniş dünyaya inamım.
Tez gəl, başına dolanım,
Həsrətlə səni gözləyirəm.

Geniş dünyamda dayağımsan,
Tək ümidim, amalımsan.
Həyatda olub qalanımsan,
Həsədlə səni gözləyirəm.

Ən müqəddəs bir varlıqsan,
Xoşbəxt gələcəkdən soraqsan.
İpək saçlarıma  sığalsan,
İftixarla səni gözləyirəm.

## SƏN MƏNİM HƏR ŞEYİMSƏN

Sən mənim səadətimsən,
Qolumsan, qanadımsan
Şirin duyğularımsan,
Sən mənim hər şeyimsən…

Sən mənim varlığımsan,
Bu günüm, sabahımsan.
Gülüşüm, göz yaşımsan,
Sən mənim hər şeyimsən…

Sən mənim dağ vüqarım,
Sən mənim ilk baharım.
Sən nurlu çırağım,
Sən mənim hər şeyimsən…

«Ağıllı qızım» deyənim,
Doğru yol göstərənim.
Hər kəsdən çox sevənim
Sən mənim hər şeyimsən…

## NƏ YAXŞI Kİ, RƏSMİN VARMIŞ…

Rəsminə dönə – dönə baxdım,
Səni öz yanımda sandım.
Həsrətindən alovlandım,
De hardasan, indi söylə?

Sən mənim arzum, amalım,
Sən mənim kövrək xəyalım.
Sənsizliyə necə dayanım?
De hardasan, indi söylə?

Rəsmini əlimə aldım,
Keçən günlərə qayıtdım.
Qəm dəryasına daldım,
De hardasan, indi söylə?

Sənsiz solğun bir nərgizəm,
Boynubükük bənövşəyəm.
Gör bir nə vaxtdır sənsizəm,
De hardasan, indi söylə?

Sən mənim tər ətirşahım,
Sən mənim nurlu sabahım.
Sən mənim yoxum – varım,
De hardasan, indi söylə?

Axşam, səhər dönə – dönə,
Baxıram sənin rəsminə.
Kaş birlikdə olaq yenə,
De hardasan, indi söylə?

Rəsmlərinə baxmaqdan,
Mən artıq yorulmuşam.
Bulud kimi dolmuşam,
De hardasan, indi söylə?

Sən göydən enən mələyim,
Sən təzə-tər çiçəyim.
Nə yaxşı ki, var rəsmin,
De hardasan, indi söylə?

## GÜLÜM SƏNİ XATIRLADIR MƏNƏ

Şehli bənövşələr, ətirli güllər,
Təzə – tər lalələr, əlvan çiçəklər.
Yamyaşıl ormanlar, sərin meşələr,
Xoş əhval – ruhiyyə bəxş edir mənə,
Gülüm səni xatırladır mənə.

Buz bulaqdan axan saf sular,
Yamaclara qalxan dar cığırlar,
Çəmənlikdə gəzən körpə quzular,
Xoş əhval – ruhiyyə bəxş edir mənə,
Gülüm səni xatırladır mənə.

Kollardan boylanan qönçəli güllər,
Budaqlarda cəh-cəh vuran bülbüllər.
Həzin nəğmə deyən şirin ləhcəli dillər,
Xoş əhval – ruhiyyə bəxş edir mənə,
Gülüm səni xatırladır mənə.

## YUXULARDA AXTARIRAM

Gələrsən görüşümə sən yuxularda,
Ürəyim dolanda qəmlə, qübarla.
Qovuşdurar tale bizi röyalarda,
Səni yuxularda axtarıram mən!

Yuxularda açıram sənə qəlbimi,
Dinləyərəm məsləhət, nəsihətini.
Qayğını, nəvazişini, təsəllini,
Səni yuxularda axtarıram mən!

Dan yeri ağarar, açılar səhər,
Həsrətdən qəlbimi göynədər qəhər.
Bahar buludu tək dolar, kövrələr,
Səni yuxularda axtarıram mən!

Xəyallar pərişan, həsrətin qəmim,
Zülmət gecələrdə yuxu görməyim.
Vüsalına ümidim, ani sevincim,
Səni yuxularda axtarıram mən!

Sehrinə düşmüşəm şirin yuxuların,
Qorxulu, qorxusuz dürlü yuxuların.
Sevincli, kədərli, qüssəli yuxuların,
Səni yuxularda axtarıram mən!

Aldığım nəfəs oldu, həyatıma rəng oldu,
Gecələrimə çələng oldu yuxularım.
Xəyal qanadlandı, cücərdi ümidlərim,
Səni yuxularda axtarıram mən!

Öz dünyamla həmahəng yuxularım,
Tək başına yozduğum yuxularım.
Ayrılıqdır sonu yuxuda qovuşmağın,
Səni yuxularda axtarıram mən!

Yuxuma gəl, göstər duyğularını,
Sevgini, təmannasız qayğılarını.
Qurduğun xəyalları, şirin arzularını,
Səni yuxularda axtarıram mən!

## SƏNİ DÜŞÜNÜRƏM

Günəş qızıl tellərini yer üzünə səpəndə,
Səhər o başdan quşlar şirin-şirin ötəndə.
Boynubükük bənövşələr kol dibində görünəndə,
Səni düşünürəm, səni xatırlayıram.

Yasəmənlər, qızılgüllər güldanları bəzəyəndə,
Bulud yağış ələyib küçələrə töküləndə,
Duman dağların başına ağ örpəyin örtəndə,
Səni düşünürəm, səni xatırlayıram.

Həsrətindən ürəyim qübar bağlayıb,
Rəsminə baxıram, gözlərimdə yaş çağlayıb,
Sən gələn yollara təlaşla boylanıb,
Səni düşünürəm, səni xatırlayıram.

Çoxdan tükənibmiş səbri hicranın da,
Elə ki, qərq oluram qəm dumanında,
Tək səni arzularam geniş dünyada,
Səni düşünürəm, səni xatırlayıram.

Hirsindən kükrəyir, coşur dəniz,
Qəhərdən gözlərim dolur sənsiz.
Gəl, dözə bilmirəm mən daha sənsiz,
Səni düşünürəm, səni xatırlayıram.

## BİLSƏYDİM SƏN GƏLƏCƏKSƏN…

Bilsəydim sən gələcəksən…
Ağac kimi yollara çətir salardım,
Könlümü çıraq edib ordan asardım,
Yollara çiçəklərdən xalı salardım.

Bilsəydim sən gələcəksən…
Qovub yollardan boranı, qarı,
Qonaq çağırardım qışda baharı,
Təbəssümlə bəzərdim bütün yolları.

Gəlişinlə günəş gülər, şəfəq saçar,
Kövrək xatirələr oyanar, dil açar.
Arzularım qönçələnər, gül açar,
Vüsal ümidlərə qanadlanar, ucalar.

Sən həyatımda ən dəyərli varlıqsan,
Ömür yollarıma işıq salan çıraqsan.
Sabahıma ümidsən, dayaqsan,
Ən ülvi istəksən, arzu, amalsan.

# 3. UŞAQ ALƏMİ

## *3.1 ÜRƏK ÇIRPINTILARIM*

### MƏNİM ARZUM

İstəyirəm həkim olam,
Xəstələri sağaldam.
Ən ağır xəstəliklərə,
Gərək mən çarə tapam.

Sağlamlığın keşiyində,
Duram bir əsgər tək.
Xəstələrin başı üstə,
Gözləyəm səhərə tək.

Ahılları, qocaları,
Körpələri, uşaqları.
Qayğıkeş anaları,
Xəstəlikdən qoruyam.

Qar kimi ağ xalat geyib,
Hipokrat andı içib.
Xəstələrə yardım edib,
Bacarıqlı həkim olam.

Xəstələri mərhəmətimlə,
Şəfqətimlə sağaldam.
Düzgün müalicə edib,
Ömürlərini uzadam.

## MƏNİM KÖNÜL NƏĞMƏLƏRİM

Qəlbimin saf aynası,
Ömrümün pak cilası.
Həyatımın mənası,
Mənim könül nəğmələrim.

Könlümün nisgili, qəmi,
Həyatımın zili, bəmi.
Xoş ümidi, təsəllisi,
Mənim könül nəğmələrim.

Fikrim, düşüncələrim,
Səmimi, zərif gülüşlərim.
Misra-misra kəlmələrim,
Mənim könül nəğmələrim.

Xəfif ürək çırpıntılarım,
Həzin, titrək pıçıltılarım,
Qanadlanan xəyallarım,
Mənim könül nəğmələrim.

Əqlim, hissim, duyğularım,
Keşməkeşli qayğılarım.
Ülvi, şirin arzularım,
Mənim könül nəğmələrim.

İlk baharın nəfəsi,
Tər bənövşə dəstəsi.
Qaranquşun müjdəsi,
Mənim könül nəğmələrim.

Şirin yuxumun röyası,
İlhamımın mənası.
Sirli-sehirli dünyası,
Mənim könül nəğmələrim.

Bir insan ömrü qismətim,
Ana təbiətə məhəbbətim.
Yuxusuz gecəm, zəhmətim,
Mənim könül nəğmələrim.

## NƏĞMƏYƏ DÖNƏR MİSRALAR

Xəyalıma xatirələr boylanar,
Qəhərdən kirpiklərim islanar.
Aram-aram qəlbimin sətrinə yazılar,
Dilimdəki həzin, kövrək misralar.

Darıxar qəlbimdəki şirin duyğular,
Uzandıqca acı hicran, intizar.
Vüsal həsrətdən alışıb yanar,
Köçər sətirlərə qəmli misralar.

Duman pərdə çəkər mənim ahımdan,
Dəniz dalğalanar göz yaşlarımdan.
Fırtına, tufan qopar harayımdan,
Ayrılıq mahnısını oxuyar misralar.

Vüsalın ömrümə həyat bəxş edər,
Ürəyimdə xoş ümidlər cücərər.
Ruhuma sevinc, fərəh gətirər,
Səadət nəğməsinə dönər misralar.

Sənin varlığınla edərəm iftixar,
Baxışından günəş kimi nur yağar.
Ən xoş arzu kimi gül-çiçək açar,
Vərəq-vərəq yazılar misralar.

## AXAN GİZLİ GÖZ YAŞLARIM

Xatirələr xəyallarımı qovar,
Şehə dönüb kirpiklərimə qonar.
Qor olub bəbəklərimə dolar,
Axan gizli göz yaşlarım.

Kövrək ürəyimdə nisgilim,
Qərib gecələr təsəllim.
Kimsəyə göstərmədiyim,
Axan gizli göz yaşlarım.

Həsrət qəlbimi yandırar,
Gözlərim dolar, boşalar.
Ancaq harayıma çatar,
Axan gizli göz yaşlarım.

İllər bir-birini qovar,
Uzaqdan həsrət boylanar.
Hərdən məni ovundurar,
Axan gizli göz yaşlarım.

Hicran, qəhər məni boğar,
Göz yaşım kirpiyimdə donar.
Axıb ürəyimə dolar,
Axan gizli göz yaşlarım.

Qönçələnmiş çiçək kimi,
Yağış yumuş ləçək kimi,
Yuyub təmizləyər qəlbimi,
Axan gizli göz yaşlarım.

Arzularım çin olaydı,
Duyğularım dil açaydı,
Kaş sevinc göz yaşı olaydı,
Axan gizli göz yaşlarım.

Həsəd aparar yaşıdlarım,
Qibtə edər yoldaşlarım.
Heç vaxt görməz dostlarım,
Axan gizli göz yaşlarımı.

Tərifləyib müəllimlərim,
Qürur duyur valideynlərim,
Sevgi, nəvazişlə silib,
Axan gizli göz yaşlarımı.

## GETDİN

Sən getdin, arxanca baxdı gözlərim,
Qulağımda qaldı şirin sözlərin.
Xəyalımdan silinmədi sözün-söhbətin,
Gül-çiçək ətirli təbəssümlərin.

Getdin… arxanca baxdım dalğın-dalğın,
Çırpındı qəlbim, əsdi əlim-ayağım.
Sən getdin, sellər gəzdi yanağımda,
Gecə yuxumda oldun, gündüz xəyallarımda.

Getdin… baxışlarım səni yola saldı,
Titrək əllərim dalınca su da atdı.
Qəlbimdə acı hıçqırtı haray qopardı,
Könlümdə hicran, gözümdə həsrət yuva saldı.

## NƏ DEYİM?

Saçlarımı darayar səhərin mehi,
Yanaqlarımı yuyar gözlərimin şehi.
Alın yazısıymış hər kəsin taleyi,
Heç bilmədim bu taleyə nə deyim?

Aylar-illər nə tez gəlib ötüşdü?
Uşaqlığım yuxu kimi keçdi.
Qismətimə uğurlu illər düşdü,
Heç bilmədim bu taleyə nə deyim?

Qəmimi qəlbimdə boğdu gülüşüm,
Üzümdə günəş tək doğdu gülüşüm.
Payız quşlar tək uçdu gülüşüm,
Heç bilmədim bu taleyə nə deyim?

Həyatda xoşbəxtlik hamının payı,
Ağ günə düşməyir ömrün hər sayı.
Qibtə etsələr də mənə çoxları,
Heç bilmədim bu taleyə nə deyim?

Xəyallar qurararam hərdən sevinə-sevinə,
Hələ dəyməmişəm heç bir kəsin qəlbinə.
Meyl saldım fikrim kimi qəşəng şeirlərimə,
Heç bilmədim bu taleyə nə deyim?

Könlümdə həyacan, təlaş, intizar,
Uçub qalxmadığı asimanmı var?
İncədən incə qəlbimdə şirin duyğular,
Heç bilmədim bu taleyə nə deyim?

Zaman çəkdi sınağa ömrümün erkən çağında,
Şükürlər olsun, üzü ağ sınandım bu imtahanda.
Qəlbim qanadlanar xoş günlər sorağında,
Heç bilmədim bu taleyə nə deyim?

## MƏNİM İLK KİTABIM

Mənim ilk uğurlarım,
Qəlbimdəki duyğularım,
Nailiyyətlərim, arzularım,
Mənim ilk kitabım.

Səndə toplanıbdır,
Gecə – gündüz yatmayıb,
Kəlmə – kəlmə, misra – misra,
Düşünüb, yazdıqlarım.

Nə qədər varam mən,
Duracaqsan zirvədə.
Xeyir – dua verib sən,
Uğurlar gətir mənə.

Sənə ön söz yazıb,
Ulu, böyük xalq şairi.
Gözüm kimi qoruyub,
Saxlayaram daimi.

## ƏZİZ MÜƏLLİMİM

Qaranquş müjdəli, nərgiz ətirli,
Bahar təravətli əziz müəllimim!
Ömür vərəqləri qızıl sətirli,
Elm fədaisi əziz müəllimim!

Azəri yurdunda dünyaya gələn,
Qəlbini məşəl edib bizlərə verən.
Zəkası ilə zirvələrə yüksələn,
Şagirdlərin iftixarı əziz müəllimim!

İstərəm coşqun çaylar kimi çağlayam,
Kükrəyərək öz məcramdan çıxam.
Gecəli-gündüzlü gərək çalışam,
Zəhmətini itirməyəm, əziz müəllimim!

## ÇOX SEVDİYİM MÜƏLLİMƏ

Müəllimə asta-asta yerişlə,
Əlində jurnal girdi içəri.
Siyahını oxuyub nəvazişlə,
Sinfə müraciət edib soruşdu dərsi.

Məni sanki görmürmüş kimi,
Yan-yönlərimdəki şagirdləri,
Bir-bir qaldırıb dindirdi,
Qiymətini yazıb təriflədi.

Elə bil görmürdü əllərimi,
Soruşdu dərsi qeyri-səmimi.
Cümləmi ağzımda yarımçıq kəsib,
İkrahla, hirslə süzdü məni.

Kinayəli, müəmmalı sualları,
Kövrək, incə qəlbimi sarsıtdı.
Gizlətdiyim göz yaşlarım,
Qəlbimə axıb yandırdı.

Fikirləşmədən, düşünmədən,
Müəlliməmi tərk etdim.
Ona olan sevgimi, hörmətimi,
Sındırılmış qəlbimdə dəfn etdim…

Həyatımız boyu əziz müəllimlər,
Qəlbimizdə daim, əbədi yaşar.
Ustadına kəm baxanların,
Əlbəttə, gözlərinə qan damar.

Müəllim! Bu sözdə çox hikmətlər var…
Ana tək bizləri sevər, oxşayar.
Bəzən ciddi, bəzən mülayim olar,
Bilmədiklərimizi təmkinlə başa salar.

Müəllim! Bizlərə öyrədər böyüklərə hörməti,
Doğma ana vətənə sevgini, məhəbbəti.
Oxumağı, yazmağı, çalışmağı, zəhməti,
Doğma el-obanı, daşı, torpağı sevməyi.

Müəllim! Gözlərindən gözümüzə nur verən,
Sonsuz kainatda nələr var bizə söyləyən.
Əllərimizdən tutub zirvələrə yüksəldən,
Doğma övladları tək bizləri sevə bilən.

## 3.2. DÜNYANI DÜŞÜNƏNDƏ

### SƏNDƏN ÜMİD KƏSİLMƏZ

Dünyaya ədalət toxumu səpən,
Yolunu azanlara yol göstərən.
Sınıq könüllərə işıq göndərən,
Əlim ətəyindən heç vaxt üzülməz,
Ulu Tanrım! Səndən ümid kəsilməz…

Böyükdür, rəhimlidir bizi yaradan,
Rəhmi təsəllidir ulu Tanrıdan.
Məhəmməd peyğəmbər, müqəddəs Quran,
Əlim ətəyindən heç vaxt üzülməz,
Ulu Tanrım! Səndən ümid kəsilməz…

Məhrum etmə bizi mərhəmətindən,
Tanrı üz döndərməz öz bəndəsindən.
Rəhmini əsirgəmə ya rəbbim bizdən,
Əlim ətəyindən heç vaxt üzülməz,
Ulu Tanrım! Səndən ümid kəsilməz…

Dünyanı yaradan bir tək Allahdır,
Uludur, böyükdür, bağışlayandır.
Ondan üz döndərənin üzü qaradır,
Əlim ətəyindən heç vaxt üzülməz,
Ulu Tanrım! Səndən ümid kəsilməz…

## MƏHƏMMƏD PEYĞƏMBƏR BELƏ BUYURMUŞ…

Məhəmməd Peyğəmbər belə buyurmuş:
Haqqın, ədalətin sınağından keçin,
Haramdan qaçaraq halal yol seçin,
Yaxşılıq görməklə ibadət edin.

Həzrəti Mustafa belə buyurmuş:
Acı olsa da belə doğrunu söyləyin,
Çalışın, dilə heç vaxt yalan gətirməyin,
Danışanda düz danışın, əhdə vəfa eyləyin.

Məhəmməd Peyğəmbər belə buyurmuş:
Öyrənmək müsəlmanın vəzifəsi demiş,
Maraqlanıb bilik almağı tövsiyə etmiş,
Öyrəndiyini başqasına öyrət demiş.

Həzrəti Əhməd belə buyurmuş:
Uca tutun adını sizə bilik verənin,
Hörmətini saxlayın valideynlərin,
Qədrini bilin, sizə yaxşılıq edənlərin.

Həzrəti Əmin belə buyurmuş:
Xəyanət etməyin, bəd əməldən uzaqlaşın,
İşinizdə təmiz olmaqla haqqa yaxınlaşın,
Böyüklərə hörmət edib ədəblə yanaşın.
Məhəmməd Peyğəmbər belə buyurmuş:
Əl tutub məzlumlara yardım eyləyin,
Qocalara, xəstələrə qayğı göstərin,
Ehtiyacı olanlara kömək eyləyin.

Məhəmməd Peyğəmbər belə buyurmuş:
Yeyin mərdlə quru çörək, yeməyin namərdlə aş,
Cahildən, nadandan çalışın uzaq olun.
Doğru yolu seçərək yanlış addım atmayın.

Məhəmməd Peyğəmbər belə buyurmuş:
Doğma eliniz, obanız, xalqınız üçün çalışın.
Qorxmayın çalışmaqdan, zəhmətə alışın,
Xeyirxah olmaqla savab qazanmağa çalışın.

Həzrəti Əl-Hakim belə buyurmuş:
Tər-təmiz yuyunub «Bismillah» söyləmək,
Tanrıya şükür edib, Əl-həmdülillah demək,
Müsəlmanın borcudur bunlara əməl etmək.

## DUA

Haqqdır Allahım! Məhəmməd Peyğəmbərim!
Şükür olsun var bir parça qismətim,
Min şükür! Salamatdır əlim - ayağım,
Ya Rəbbim! Çox görmə sevdiklərimi.

## NAĞIL DÜNYAM

Nağıl kimi görünür,
Bu geniş dünya mənə.
Fərqli tale yaşayır,
Ömür-gün sürür hərə.

Kimi işgəncə, təlaş keçirir,
Kimi firavan həyat sürür.
Kimi çörəyini daşdan çıxarır,
Kiminin qisməti qabağına çıxır.

Kimi hesabsız var-dövlət yığır,
Yığdıqca da gözləri doymur.
Kimi də doluya qoyur olmur,
Boşa qoyur ancaq dolmur.

Dünya bir yandan boşalıb dolur,
Hamı ömür körpüsündən keçməli olur.
Kimi həqiqəti beşikdə boğur,
Kimi nur saçır ürəklərə nur.

## DÜNYAMIZI SEVƏK

Dünya riyazi dilində əzəmətli kitabdır,
Bu dillərin işarələri həndəsi fiqurlardır.
Dünya möcüzələrlə dolu, təbiət ecazkardır.
Dünya eniş-yoxuşlu, boranlıdır, qarlıdır,
Dünyanın əsrarəngiz gözəlliyi insanlara bağlıdır.

Dünya qədim kitab, kimsə oxuyub bitirmədi,
Cazibəli qoynuna kimlər gəlib getmədi?
Xəzinələr var torpağının hər qatında,
Sirli nəsillər yatır bu torpağın altında,
Neçə nəslin payı var hər insan həyatında.

Bu dünyada ömür-gün bir axar bulaqdır,
Hamı gəldi gedərdi, qoca dünya qalandır.
Dünya həmin dünyadır, dəyişən insanlardır,
Dünyaya gələn hər kəs qışqırıb ağlayandır,
Dünyadan köçəndə səssiz-səmirsiz ayrılandr.

Dünyamızdan sülh, möcüzə umar analar,
Torpağını zəhməti ilə, alın təri ilə suvarar.
Dünyanı abad, azad görməyi arzular,
Kimlərəsə dünya firavan həyat bağışlar,
Kimlərəsə bu dünya acı, ağrı yaşadar.

Dünya əbədidir, zaman hökmünü verən,
Dünyanın qonağıdır beş-on gün ömür sürən.
Dünyada ucala bilər yerində sözünü işlədən,
Yurdunu, yuvasını, xalqını sevə bilən,
Yaxşılıq eyləyib dünyasını dəyişən.

Gəlin ey insanlar dünyanı sevək,
Biz təbiəti sevək, həyatı sevək.
Yalan, iftira yox, doğru söyləyək,
Bir yıxılan görsək kömək eyləyək,
Ehtiyacı olana şəfqət bəxş edək.

## DİLƏNÇİ QADINA

Həyat o vaxt gözəldir,
Yaşamağı bacarsan!
Əməlinlə, işinlə,
Zəhmətinlə ucalsan!
Ah… Necə zavallısan,
Küçədə dayanmısan.
Nə talesiz qadınmışsan?
Çörək pulu qazanmaq üçün,
Göz yaşları axıdırsan,
Dil töküb yalvarırsan,
Qəlbləri dağlayırsan.
Yalvarırsan, göz yaşların,
Yanaqlarına süzülür.
Fəryadın qəlb dağlasa da,
Bəzən dodaq da büzülür.
Tanrı səni bağışlasın,
Sənə bir qapı açsın.
Ona-buna əl açmayıb,
Halal çörək qazanasan,
Zəhmətkeş insan olasan.

## QORXDUM

Gün hələ bitmədən,
Gecənin qaranlığından qorxdum.

Günəş hələ çıxmadan,
Günün yandırmağından qorxdum.

Hələ heç ayrılmadan, uzaqlaşmadan,
Sənsiz darıxmağımdan qorxdum.

Hələ günəş batmadan,
Havanın qaralmasından qorxdum.

Dan ulduzu doğmadan,
Səhərin açılmasından qorxdum.

Naqis, paxıl alçaq adamların,
Pisliyindən, riyakarlığından qorxdum.

## SAAT

Asta-asta, aramla,
Divarda saat vurur.
Zəngli saatın səsinə,
Hamı yuxudan durur.

İnsanlar tezdən işə gedir,
Uşaqlar məktəbə tələsir.
Zəngli saat olmasa əgər,
İşə gecikər hamı.

Qatar-qatar uca çinarlar,
Yol boyu vüqarla dayanarlar.
Kölgəsində görüşə gələn oğlan,
Tez-tez qolundakı saatına baxar.

Çinarın yarpaqları pıçıldaşır,
Gecikir el gözəli, görüşə yubanır.
Səbri tükənir oğlanın, yola boylanar,
Gah yola, gah qolundakı saatına baxır.

## SƏXAVƏT OXUYANDA
*Səxavət Məmmədovun əziz xatirəsinə…*

İfasını eşidəndə,
Buludların gözü dolar,
Bülbüllər susar, lal olar,
Səxavət oxuyanda.

Səsi dağ çeşməsidir,
Dinləyəni kövrəldir,
Ürəkləri titrədir,
Segah, muğam oxuyanda.

«Yetim segah» havalanar,
Pərdə-pərdə ucalar.
Nisgilli haray salar,
«Heyratı», «Rast» oxuyanda.

Ovsunlayır hər kəsi,
Qeyri-adi, ecazkar səsi.
Xanəndənin məlahətli,
Kövrək, yanıqlı səsi.

## DAĞLAR OĞLU

*Həkim-cərrah Namaz Musayevə*

Cərrah Namaz həkim,
Əllərin var olsun!
Tez sağalt xəstələri,
Tanrı sənə yar olsun!

O dağların mərd oğlusan,
Anadan loğman doğulmusan.
Ömürlərə ömür calamısan,
Həyatda Namaz həkim.

Əyriqardan qar əskilməz,
Çəni, dumanı çəkilməz.
Bulaqları saya gəlməz,
O dağların Namaz həkim.

Yamacında al-əlvan çiçəyi,
Baldırğanı, quzqulağı, çiyələyi,
Kəklikotu, yarpızı, əvələyi,
Can dərmanı Namaz həkim.

Xınalı sal qayaları,
Altı bildirçin yuvaları.
Qızılkilsənin iftixarı,
Fəxrisən Namaz həkim.

Ağarsa da qara tellərin,
Şəfqətlə doludur ürəyin.
Şəfa diləyən xəstələrin,
Ümidisən Namaz həkim.

İlləri yola salmısan şərəflə,
İnsanlara həyat verdin neştərlə.
Övladların qürur duyur səninlə,
Yüngüldür əllərin Namaz həkim.

## 3.3. GÜLÜŞSÜZ KEÇMƏZ ÖMÜR

### NÜBAR NƏNƏ

Xalça, palazını Nübar nənə,
Çıxarır eyvana, verir günə.
Alır zoğal çubuğunu əlinə,
Çırpır onları dönə-dönə.

Toz-duman olar yenə,
Asta-asta qalxar göyə.
Yatanlar oyanar səs-küyə,
Heyrətlə baxar bir-birinə.

Neyləsinlər bu istidə?
Fikirləşdilər ad gününə…
Tozsoran alıb hədiyyə,
Bağışladılar Nübar nənəyə.

Nübar nənə indi də,
Döşək, balış düzdü günə.
Yuxunun şirin yerində,
Çubuğunu aldı əlinə.

Aman! Nübar nənə, yenə…
Neyləyirsən bu istidə?
Bir durub dincəlsənə,
Yatmağa imkan versənə…

## YATMAQ OLMUR

Yayın qızmar bürküsü,
Ağcaqanad kəsib nəfəsi.
Qonşuların hərəsinin
Suya qoyduğu motor səsi,
Yatmağa qoymayır ki…

Axşamdan itlərin hürüməsi,
O başdan xoruzların səsi.
Günorta uşaqların qışqırtısı,
Həyətdə futbol oynaması
Yatmağa qoymayır ki…

Səhər «xlor var, xlor», «qatıq» səsi,
Qonşuların qeybət eyləməsi,
İşdən gələn sərxoş qonşunun
Arvadını döyüb əzişdirməsi,
Yatmağa qoymayır ki…

Qapı döyülür bərk-bərk,
Baxıram gözlükdən titrəyərək,
«Qaz pulu», «işıq pulu», «su pulu»
İstəyənlərin səsi əsəbləşdirir hər kəsi
Yatmağa qoymayır ki…

## AY CAMAAT BU DA VARMIŞ DÜNYADA…

Mərifətsiz, qəlbiqara,
Yazdıqları cızma-qara.
İlişir uşaqlara,
Ay camaat bu da varmış dünyada…

Şair olmaq sənlik deyil,
Yazdıqların bir şey deyil…
Danışırsan zayıl-zayıl,
Ay camaat bu da varmış dünyada…

Yazırsan sarsaq-sarsaq,
Peşən əl-ayağa dolaşmaq,
Uğurlara paxıllanmaq,
Ay camaat bu da varmış dünyada…

Ləyaqətsiz ləyaqətdən danışar,
Kor günəş görəndə çaşar.
Gəvəzə boş-boş danışar,
Ay camaat bu da varmış dünyada…

# SƏİDƏ ƏLİYEVA

# NAGIL DÜNYAM

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

*Kompüter dizayneri:* Zahid Məmmədov
*Texniki redaktor:* Rövşanə Nizamiqızı

Yığılmağa verilmiş **25.09.2011.**
Çapa imzalanmış **14.10.2011.**
Şərti çap vərəqi **8,5.** Sifariş **№ 408.**
Kağız formatı **60x84 1/16.** Tiraj **1000.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.


SƏİDƏ ƏLİYEVA